RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 244 (9411) 7 NOYABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Azərbaycanın inkişaf modeli

### Böyük qələbələr və yeni çağırışlarla zəngin türk əsrinə böyük töhfə

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində türkdilli ölkələr arasında siyasi, diplomatik, mədəni əlaqələrlə yanaşı, iqtisadiyyat, ticarət sahələrində də böyük nailiyyətlər əldə edilib.

Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri, həmçinin bu regiondakı ölkələrin dövlət başçılarının Azərbaycana səfərləri də türk dövlətləri ilə yüksək əlaqələrin bariz göstəricisidir.

"Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər", - deyə Astanada keçirilən görüşdə dövlət başçısı İlham Əliyev məlumat verdi ki, Azərbaycan türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur və bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

→ 5

## "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851, № 11, maddələr 1323, 1335, № 12 (I kitab), maddə 1421; 2021, № 2, maddə 109, № 6 (I kitab), maddə 548, № 8, maddə 895, № 11, maddə 1210; 2022, № 5, maddə 439, № 8, maddə 829; 2023, № 7, maddə 895) aşağıdakı məzmunda 20.8.3-1-ci maddə əlavə edilsin:

"20.8.3-1. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə "Müharibə veteranı" adı almış şəxslər;".

**Maddə 2.** Bu Qanun 2023-cü il sentyabrın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 oktyabr 2023-cü il*

## Azərbaycan ilə Koreya Respublikası arasında əməkdaşlıq genişlənir



### Prezident İlham Əliyev Koreya Respublikasının Ticarət və Sənaye Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Koreya Respublikasının Ticarət və Sənaye Palatasının və "SK Group" şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Çey Tae-von ölkəmizdə sonuncu dəfə 12 il əvvəl olduğunu qeyd edərək, ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda baş verən inkişaf proseslərinin və qazanılan nailiyyətlərin onda dərin təəssürat oyatdığını dedi, bununla bağlı təbriklərini çatdırdı. Qonaq Azərbaycan ilə Koreya Respublikası arasında müxtəlif istiqamətlərdə iqtisadi əməkdaşlıq imkanlarını qeyd etdi.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının tətbiqi ilə bağlı Koreya Respublikası şirkətinin təcrübəsi, Azərbaycanın zəngin bərpaolunan enerji potensialının reallaşdırılması, həmçinin ölkəmizin böyük mineral ehtiyatları, informasiya-kommunikasiya texnologiyaları, təhsil və insan kapitalının inkişafı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Ölkələrimiz arasında turizm əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, 1953-cü ildə təsis olunan və baş ofisi Seul şəhərində yerləşən "SK Group" Koreya Respublikasının ikinci ən böyük şirkətlər qrupudur. Şirkətin ötənilki gəliri 150,9 milyard, aktivlərinin həcmi isə 246,9 milyard ABŞ dollarıdır. Qlobal miqyasda törəmə şirkətlərinin və filiallarının sayı 512, dünya üzrə əlaqəli şirkətlərinin sayı isə 198 olan "SK Group"un müxtəlif ölkələrdə 100 mindən çox işçisi var. Şirkət energetika və kimya, informasiya-kommunikasiya texnologiyaları, yarımkeçiricilər və qabaqcıl materiallar, logistika, xidmətlər, biosəhiyyə və əczaçılıq istiqamətlərində fəaliyyət göstərir.

## Azərbaycan-Xorvatiya münasibətləri yeni mərhələdə



**Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin Azərbaycana işgüzar səfəri**



**Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, sonra nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, energetika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Hökumətlərarası komissiyanın iclasının tezliklə keçirilməsinin və bu çərçivədə iki ölkənin işgüzar dairələri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Xorvatiyanın minalardan əziyyət çəkən ölkə olaraq, Azərbaycana bu sahədə dəstək vermək niyyəti müsbət qarşılandı, minaların təmizlənməsi sahəsində təcrübə mübadiləsinin və əməkdaşlığın vacibliyi qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Həmçinin Xorvatiyanın Avropa İttifaqına və NATO-ya üzv ölkə olaraq, Azərbaycanın bu təsisatlarla əməkdaşlığını daim dəstəklədiyi vurğulandı.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qaşılanma

Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç noyabrın 6-da Azərbaycan Respublikasına işgüzar səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Xorvatiya Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Andrey Plenkoviçi Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

## Enerji təhlükəsizliyi gündəlikdə olan əsas məsələdir

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 6-da ölkəmizdə işgüzar səfərdə olan Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ali və yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlərin iki ölkə arasında münasibətlərin inkişafında mühüm rol oynadığı vurğulanıb. Azərbaycan-Xorvatiya münasibətlərinin bir çox sahələrdə uğurla inkişaf etdiyi bildirilərək, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq etdiyi qeyd olunub.

İqtisadi-ticari sahədə əməkdaşlığın artım dinamikasından məmnunluq ifadə edilib, ötən il ticarət dövriyyəsinin həcminin 28 faiz artdığı bildirilib. Tərəflər investisiya sahəsində əməkdaşlığın daha da inkişafı üçün yaxşı imkanların olduğunu qeyd ediblər.

Görüş zamanı minaların təmizlənməsi sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin xətti ilə genişmiqyaslı minatəmizləmə əməliyyatlarının aparıldığı vurğulanıb, Xorvatiya ilə bu sahədə əməkdaşlığın mövcud olduğu diqqətə çatdırılıb.

Tərəflər enerji təhlükəsizliyini bu gün qlobal gündəlikdə duran aktual məsələlərdən biri kimi qiymətləndiriblər. Azərbaycanın özünün zəngin enerji ehtiyatları və infrastrukturu ilə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi bildirilib. Xorvatiyanın təbii qaz tədarükü mənbələrinin şaxələndirilməsi istiqamətində səyləri vurğulanaraq, bu baxımdan TAP layihəsinin davamı olan İon-Adriatik Qaz Boru Kəməri layihəsinin əhəmiyyəti qeyd edilib.

Görüşdə həmçinin nəqliyyat-tranzit, bərpaolunan enerji, humanitar və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə ikitərəfli əlaqələrin perspektivləri müzakirə edilib.

# İkitərəfli münasibətlər uğurla inkişaf edir



Noyabrın 6-da Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Milli Məclisin Sədri ölkələrimizi birləşdirən dostluq münasibətləri və qarşılıqlı faydalı əməkdaşlıqdan danışıb, son illər ərzində ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini deyib, ikitərəfli münasibətlərin dərinləşməsində ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin, görüşlərin əhəmiyyətini vurğulayıb, hər iki ölkə başçısının səfərlərinin əhəmiyyətini qeyd edib.

Söhbətdə müxtəlif sahələrdə əlaqələrlə yanaşı, humanitar sahədə də əməkdaşlığın əhəmiyyətinə toxunun parlamentin spikeri Azərbaycan və Xorvatiya xalqları arasında təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlığın davam etdirilməsinin, qarşılıqlı əsasda mədəni tədbirlərin keçirilməsi kimi fəaliyyətlərin dəstəklənməsinin xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına xidmət etdiyini bildirib.

Görüşdə parlamentlərarası əlaqələrdən danışan spiker Sahibə Qafarova bu ilin may ayında Milli Məclisin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclasında iştirak etmək üçün ölkəmizə səfər edən Xorvatiya parlamentinin Sədr müavini Davorko Vidoviçlə keçirdiyi görüşü məmnuniyyətlə xatırlayıb. O, mövcud parlamentlərarası əlaqələri Azərbaycan ilə Xorvatiya arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amil kimi qiymətləndirib.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında hər iki ölkə parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının rolu vurğulanıb, müntəzəm təmasların, dialoq və fikir mübadiləsinin mövcud əlaqələrin dərinləşdirilməsində xüsusi rolu qeyd olunub.

Görüşdə 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonrakı dövrdə regionda mövcud olan vəziyyət, cari ilin sentyabrında Azərbaycanın həyata keçirdiyi lokal antiterror tədbirləri, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən irimiqyaslı bərpa və quruculuq işləri barədə danışılıb. Sahibə Qafarova deyib ki, Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayıb. Ölkəmiz 30 il dünyada mövcud olan ikili standartlardan əziyyət çəkib, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına son qoyulması, torpaqlarımızın qeyd-şərtsiz işğaldan azad olunması ilə bağlı beynəlxalq təşkilatların qərar və qətnamələri icra olunmayıb. 2020-ci ildə Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını təmin edib, öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan sülh istəyir və sülhün əldə olunması bütün regionda sabitliyin və təhlükəsizliyin təmin olunmasına xidmət edəcək.

Azərbaycan parlamentində olmaqdan məmnunluğunu bildirən Baş nazir Andrey Plenkoviç ölkəmizə səfərinin məqsədləri və keçirdiyi görüşlər barədə məlumat verib. Qonaq Xorvatiya ilə Azərbaycan arasında qarşılıqlı səfərlərin önəmini dəqqətə çatdıraraq, bu səfəri çərçivəsində bir çox məsələlər haqqında müzakirələr apardığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan-Çin münasibətləri yüksək səviyyədədir



Son illər Azərbaycanın Çin ilə iqtisadi əməkdaşlığı genişlənərək bütün sahələrdə nəzərəçarpacaq inkişafa səbəb olub. Azərbaycan ilk dövrdən Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpinin iki ölkə arasında əlaqələri gücləndirən və müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanları yaradan "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyib. Azərbaycan bu təşəbbüsün əsas istiqamətlərindən biri olan "yaşıl inkişaf"ın təşviqini də dəstəkləyir.

Bu fikirləri Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev 6-cı Çin Beynəlxalq İdxal Sərgisi çərçivəsində təşkil olunan Honçiao Beynəlxalq İqtisadi Forumunun "Qlobal ekoloji sivilizasiyanın qurulması üçün yaşıl investisiya və ticarətin inkişaf etdirilməsi" adlı plenar iclasında çıxışı zamanı deyib.

Ş.Mustafayev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və ÇXR Sədri Si Cinpinin birgə səyləri sayəsində iki ölkə arasında siyasi dialoq və ənənəvi dostluq möhkəmlənir, dövlətlərarası münasibətlər inkişaf edir, qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq yaxşı dinamika nümayiş etdirir.

Yaşıl transformasiya prosesinə öz töhfəsini verən Azərbaycanın zəngin təbii resurslara, coğrafi mövqeyinə görə nadir məkanda yerləşdiyini bildirən Baş nazirin müavini əlavə edib ki, Azərbaycanın Avropa ilə Asiya arasında körpü rolu oynaması ölkəmizə "yaşıl ticarət"i inkişaf etdirməyə imkan verir.

Azərbaycanın 2030-cu ilədək alternativ və bərpaolunan mənbələrdən əldə edilən enerjinin həcmini 30 faizə çatdırmaqda qərarlı olduğunu bildirən Ş.Mustafayev işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Prezident İlham Əliyevin tapşırığı ilə "Yaşıl enerji zonası" konsepsiyası formatında bərpa edildiyini, həmin ərazilərdə ən müasir texnologiya və konsepsiyaların, o cümlədən "ağıllı kənd", "ağıllı şəhər", "ağıllı kənd təsərrüfatı" və "yaşıl enerji"nin tətbiq olunduğunu diqqətə çatdırıb.

Ölkəmizin alternativ və bərpaolunan enerji potensialı haqqında məlumat verən Baş nazirin müavini bildirib ki, bu sahə artıq Azərbaycanda xarici investisiyaların əsas mənbəyinə çevrilib. O, Azərbaycandakı "yaşıl enerji" layihələrində Çin şirkətləri ilə uğurlu əməkdaşlıq qurulduğunu deyib.

Ş.Mustafayev diqqətə çatdırıb ki, ötən ilin dekabrında Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında imzalanan Sazişə əsasən Azərbaycanda istehsal edilən "yaşıl enerji" Avropaya nəql olunacaq.

***

Noyabrın 5-də Çinin iri maliyyə-biznes mərkəzi olan Şanxay şəhərində 6-cı Çin Beynəlxalq İdxal Sərgisi işə başlayıb.

Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpinin təşəbbüsü və himayəsi ilə keçirilən sərgi xarici məhsulların və xidmətlərin Çin bazarına girişini təşviq etmək məqsədi daşıyır. Çinin Ticarət Nazirliyinin, Şanxay meriyasının və Çin Beynəlxalq İdxal Sərgi Bürosunun təşkilatçılığı ilə keçirilən sərgiyə 154 ölkə və beynəlxalq təşkilatdan 3400 iştirakçı, o cümlədən "Global Fortune 500" siyahısından 289 şirkət qatılıb. Təxminən 410 min peşəkar ziyarətçi sərgi üçün qeydiyyatdan keçib. Şanxay sərgisində 70-dən çox ölkənin milli stendi ilə yanaşı, müxtəlif sahələr üzrə şirkətlərin biznes pavilyonları da fəaliyyət göstərir. Noyabrın 10-dək davam edəcək sərginin gedişində 400-dən çox məhsul, texnologiya və xidmət ictimaiyyətə ilk dəfə təqdim olunacaq.

Sərgidə Azərbaycandan Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti iştirak edir.

***

Çinin Şanxay şəhərində Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 9-cu iclası keçirilib.

İclasda Azərbaycan nümayəndə heyətinə Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev, Çin tərəfinə isə ticarət nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Lin Ci rəhbərlik edib.

Baş nazirin müavini Şahin Mustafayev qarşılıqlı dostluq və etimad prinsiplərinə əsaslanan Azərbaycan-Çin münasibətlərinin illərin sınağından keçdiyini və möhkəm təməl üzərində qurulduğunu, dövlət başçıları İlham Əliyev və Si Cinpinin səyləri nəticəsində hazırda münasibətlərimizin dinamik və hərtərəfli inkişaf dövrünü yaşadığını deyib. O, iki ölkə arasında münasibətlərin əsasını qoyan Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar təntənəli tədbirin yüksək səviyyədə təşkilinə göstərilən dəstəyə görə Çin Hökumətinə minnətdarlıq edib.

Ş.Mustafayev iki ölkənin ticari-iqtisadi istiqamət də daxil olmaqla müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini, qarşıda iqtisadi əməkdaşlığın keyfiyyətcə yeni məzmun ilə zənginləşdirilməsi vəzifəsi durduğunu bildirib. O, ötən il Azərbaycan-Çin ticarət əlaqələrinin həcminin əvvəlki illə müqayisədə 21 faiz çoxaldığını, qarşılıqlı ticarətin cari ilin 9 ayı ərzində təxminən 50 faiz artmasının müsbət dinamikanın göstəricisi olduğunu deyib.

Ş.Mustafayev Çin şirkətlərinin Azərbaycanda sənaye, kənd təsərrüfatı, ticarət, xidmət sektoru, inşaat, nəqliyyat və digər sahələrdə uğurla fəaliyyət göstərdiyini vurğulayıb, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində Çin şirkətlərini fəal iştiraka dəvət edib. O, Azərbaycandakı sənaye parklarına və iqtisadi zonalara investisiya qoyuluşu üzrə qarşılıqlı fəaliyyət üçün yaxşı perspektivlərin olduğunu bildirib.

Baş nazirin müavini nəqliyyat-tranzit sahəsi üzrə əməkdaşlığın iki ölkə arasında münasibətlərdə prioritet olduğunu diqqətə çatdırıb, "Orta Dəhliz"in ən vacib hissəsi olan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini vurğulayıb.

Çinin ticarət nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Lin Ci Çin-Azərbaycan münasibətlərinin bütün sahələrdə yüksək səviyyədə inkişaf etdiyini bildirib, əməkdaşlığımızın inkişafında dövlət başçısının səylərini vurğulayıb. Bu xüsusda Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə Azərbaycan Prezidenti İlham Əliyevin ötən il Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənddəki Zirvə toplantısı çərçivəsində görüşünün əhəmiyyəti qeyd edilib.

Sonda Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 9-cu iclasının protokolu imzalanıb.

*AZƏRTAC*

# Azərbaycan və Çin KOB-ları arasında ticarət və investisiya əməkdaşlığı təşviq ediləcək

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Çin-Şanxay Əməkdaşlıq Təşkilatı Yerli İqtisadi və Ticarət Əməkdaşlıq Nümayiş Zonası (SCODA) arasında Anlaşma Memorandumu İmzalanıb. AZƏRTAC xəbər verir ki, Şanxayda davam edən 6-cı Çin Beynəlxalq İdxal Sərgisi çərçivəsində baş tutan mərasimdə sənədi KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və SCODA-nın inzibati komitəsinin direktor müavini Fu Conhua imzalayıblar. Azərbaycanın 6-cı Çin Beynəlxalq İdxal Sərgisindəki ölkə stendində baş tutan mərasimdə sərgidə iştirak üçün Şanxayda səfərdə olan Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə dövlət qurumlarının rəhbər şəxslərindən ibarət nümayəndə heyəti iştirak edib.

Sənədə əsasən KOBİA ilə SCODA xüsusilə Azərbaycanın və Çinin kiçik və orta biznes subyektləri (KOB-lar) arasında ticarət və investisiya əməkdaşlığını təşviq edəcəklər. Bu xüsusda tərəflər bir-birinə ticarət, investisiya imkanları, iqtisadi əməkdaşlıq və nəşrlərlə bağlı məlumatları mübadilə etməklə mütəmadi olaraq sıx əlaqələr quracaq, öz ölkələrinin müəssisələrini, xüsusilə KOB-ları qarşı tərəfin dövlətində fəaliyyət göstərən tərəfdaşlarla müxtəlif əməkdaşlıq formalarını qurmaq üçün dəstək göstərəcəklər.

Bundan başqa, tərəflər KOB-lar üçün xidmətlərin göstərilməsi sahəsində fəaliyyətin təşkili və tənzimlənməsi ilə bağlı təcrübə mübadiləsi, biznes yarmarkaları, sərgiləri haqqında məlumat mübadiləsi, birgə seminarlar, təşviqat xarakterli tədbirlərin təşkili ilə qarşılıqlı mübadilə və əməkdaşlıq həyata keçirəcəklər.

# Heydər Əliyev Mərkəzi ilə tanışlıq





Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç noyabrın 6-da Azərbaycana işgüzar səfəri çərçivəsində Heydər Əliyev Mərkəzi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Mərkəzin direktorunun birinci müavini Fərqan Novruzov qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu Öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr Azərbaycan tarixinin, dilinin, mədəniyyətinin və digər milli sərvətlərinin beynəlxalq aləmdə təbliğinə, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın, ekologiyanın və iqtisadiyyatın müxtəlif sahələrinin dəstəklənməsinə və inkişafına xidmət edir.

Mərkəzdə Ümummilli Liderin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektlərinin virtual şəkildə təqdim olunduğu Heydər Əliyev Muzeyi ilə tanışlıq Xorvatiya Baş nazirində böyük maraq doğurub.

Qonaq Ulu Öndər Heydər Əliyevin 1969-cu ildən 2003-cü ilədək Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsindəki avtomobillərə baxıb.

Baş nazir Andrey Plenkoviç Heydər Əliyev Mərkəzinin xatirə kitabına ürək sözlərini yazıb.

Sonda Xorvatiya Baş nazirinə xatirə hədiyyəsi təqdim edilib.

# Azərbaycanda yaşayan Xorvatiya vətəndaşları ilə görüş





Noyabrın 6-da Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç Azərbaycan Respublikasında yaşayan Xorvatiya vətəndaşları ilə görüşüb.

# Səfər başa çatdı

Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçin Azərbaycan Respublikasına işgüzar səfəri noyabrın 6-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Xorvatiya Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Baş nazir Andrey Plenkoviçi Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

# Ceyhun Bayramov Rumıniyada rəsmi səfərdədir



Noyabrın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rumıniyaya rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Luminitsa Odobesku ilə görüşüb.

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Görüşlər zamanı Azərbaycan-Rumıniya arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq əlaqələri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb.

Əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin və siyasi dialoqun əhəmiyyəti və rolu qeyd olunub. Həmçinin ölkələrimizin qanunverici orqanları arasındakı əməkdaşlıq yüksək qiymətləndirilib.

Rumıniya ilə iqtisadiyyat, enerji, ticarət, humanitar, təhsil, kənd təsərrüfatı, turizm, əczaçılıq və sair istiqamətlərdə müvafiq əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə olunub. Xüsusilə "yaşıl enerji" sahəsindəki tərəfdaşlığın əlaqələrimizin inkişafındakı potensialı vurğulanıb, nəqliyyat və logistika kimi istiqamətlərin əməkdaşlığımıza əlavə töhfə verəcəyi diqqətə çatdırılıb.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirdiyi genişmiqyaslı yenidənqurma işləri barədə fikir mübadiləsi aparılıb və Rumıniya şirkətləri sözügedən quruculuq fəaliyyətlərində həm podratçı, həm də investor kimi iştiraka dəvət olunub. Bununla yanaşı, Ələt Azad İqtisadi Zonasında geniş imkanlar barədə məlumat verilib.

Heydər Əliyev Fondu tərəfindən Rumıniyada həyata keçirilən xeyriyyə layihələri yüksək qiymətləndirilib, humanitar sahə üzrə mübadilələrin intensivləşdirilməsinin vacibliyi vurğulanıb.

Görüşlərdə nazir Ceyhun Bayramov ölkəmiz tərəfindən 24 saat ərzində həyata keçirilmiş antiterror tədbirlərini şərtləndirən amillər, xüsusilə öhdəliklərə zidd olaraq Azərbaycan ərazilərindən çıxarılmamış erməni silahlı qüvvələrindən irəli gələn təhdidlər, mövcud regional vəziyyət və Azərbaycanın bölgədə sülh və sabitliyin təmin edilməsi istiqamətində planları barədə məlumat verib.

Ermənistan ilə münasibətlərin normallaşdırılması üzrə Azərbaycanın davamlı sülh gündəliyini təşviq etməsinə baxmayaraq, Ermənistan tərəfindən ölkəmizə qarşı ardıcıl şəkildə qarayaxma kampaniyasının sülhə xidmət etmədiyi bildirilib. Eyni zamanda Ermənistan tərəfindən ölkəmizə qarşı yaradılmış mina təhdidləri diqqətə çatdırılıb.

Daha sonra keçirilmiş mətbuat brifinqində nazirlər görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış ediblər.

***

Noyabrın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rumıniyanın Baş naziri Marçel Çolaku ilə görüşüb.

Görüşdə tərəflər Azərbaycanla Rumıniya arasında ənənəvi dostluq və strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluq ifadə edərək, qarşılıqlı səfərlərin, yüksəksəviyyəli dialoqun, habelə mütəmadi əsasda siyasi məsləhətləşmələrin intensivləşməsinin iki ölkə arasında iqtisadi, humanitar, təhlükəsizlik, təhsil və digər yeni sahələr üzrə əməkdaşlığın inkişafına təkan verəcəyini vurğulayıblar.

Söhbət zamanı iki ölkə arasında çoxölçülü strateji tərəfdaşlığın inkişaf etdirilməsinin önəminə toxunulub və parlamentlərarası münasibətlərin inkişafı, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfi Azərbaycanın Cənubi Qafqaz regionunda dayanıqlı sülhün təsis edilməsi planları və bu istiqamətdə atılan praktiki addımlar, habelə Ermənistanla normallaşma gündəliyi barədə məlumatlandırıb.

Görüşdə yeni əməkdaşlıq istiqamətləri və qarşılıqlı maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

***

Noyabrın 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Rumıniya parlamenti Senatının sədri Nikolae Çuka ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Rumıniya arasında ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlıq gündəliyi, habelə regionda və dünyada mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin müstəqilliyini tanıyan ilk ölkələrdən biri olan Rumıniya ilə ötən il diplomatik münasibətlərimizin 30 illiyinin qeyd edildiyini vurğulayaraq, bu illər ərzində ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafında qarşılıqlı səfərlər, təmasların, o cümlədən parlament diplomatiyasının rolunu diqqətə çatdırıb. Bu istiqamətdə münasibətlərin daha da genişləndirilməsi məqsədilə iki ölkə arasında mövcud müqavilə-hüquq bazasının inkişafının zəruri olduğu vurğulanıb.

C.Bayramov Azərbaycan ilə Rumıniya arasında ikitərəfli münasibətlərin uğurlu inkişafı ilə yanaşı, regional və beynəlxalq təşkilatlar çərçivəsində dəstək və həmrəyliyə əsaslanan qarşılıqlı faydalı əməkdaşlığın mövcudluğunun təqdirəlayiq olduğunu qeyd edib.

Görüş zamanı qarşı tərəf postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın yenidənqurma, reinteqrasiya və sülh quruculuğu fəaliyyəti barədə ətraflı məlumatlandırılıb. Nazir xüsusilə bu il sentyabrın 19-20-də Qarabağ bölgəsində Azərbaycan tərəfindən görülən və qeyri-qanuni erməni silahlı qüvvələrinin mövcudluğuna son qoyan antiterror tədbirlərindən sonra regionda reinteqrasiya, sülh gündəliyinin irəlilədilməsi üçün münbit şəraitin yarandığını vurğulayıb.

Mövcud çətinliklərə və çağırışlara baxmayaraq, ölkəmizin bundan sonra da Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesi üzrə əməli addımlar atmaqda qərarlı olduğu diqqətə çatdırılıb.

Senatın Sədri Nikolae Çuka Rumıniyanın Baş naziri qismində ötən il Azərbaycan Prezidenti İlham Əliyevlə, cari ilin oktyabrında isə parlament Senatının Sədri qismində Milli Məclisin Sədri Sahibə Qafarova ilə keçirdiyi görüşlərə istinad edərək, belə təmaslar çərçivəsində ikitərəfli münasibətlərin inkişaf perspektivlərinin müzakirəsinin əməkdaşlığa töhfə verdiyini bildirib. Rumıniyanın Cənubi Qafqazda sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində Azərbaycanın səylərini dəstəklədiyi diqqətə çatdırılıb.

*AZƏRTAC*

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



**Şanlı tariximizin ən möhtəşəm səhifəsi - Zəfər Günümüzü qürur və fəxarət duyğusu ilə qeyd edirik. Heç zaman bugünkü kimi vüqarlı, iftixarlı olmayan xalqımız milli ruhun, ləyaqətin təntənəsi gününün böyük coşqusunu yaşayır.**

**Məhz bu ili, Böyük Qələbənin üçüncü ilini daha böyük sevinc hissi ilə yaşayırıq. 2023-cü il ərazi bütövlüyümüzün, suverenliyimizin tam təmin olunduğu il kimi tariximizdə yeni səhifə açıb. 1990-cı ilin noyabrında Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik rəmzi kimi Naxçıvanda qaldırdığı üçrəngli müqəddəs simvolumuzun 33 ildən sonra Müzəffər Ali Baş Komandan, Böyük Zəfərin memarı İlham Əliyev tərəfindən Xanın kəndində ucaldılması suverenliyimizin təminatının böyük nidası oldu.**



# Qələbələr Komandanı

2023-cü il tariximizdə həm də simvolik mənası ilə əlamətdardır. Bu il xilaskar liderimiz Ulu Öndər Heydər Əliyevin 100 illiyi, Milli Qurtuluşun 30 illiyi, möhtərəm İlham Əliyevin prezidentliyinin 20 ili tamam olur.

Zəfəri bizlərə yaşadan, ömürboyu minnətdar olduğumuz şəhidlərimizin, eləcə də ideyaları Azərbaycanı qələbələrdən qələbələrə aparan Ulu Öndər Heydər Əliyevin ruhu şaddır bu gün...

2020-ci il noyabrın 8-də Şuşada, 2023-cü il oktyabrın 15-də Xankəndidə ucalan bayrağımızın kölgəsi bütün suveren ərazilərimizin üzərinə düşür və gələcək zəfərlərimizin yoluna mayak kimi nur saçır.

## Ağır sınaqlar, qətiyyətli mübarizə, ədalətin gücü

Bu bir həqiqətdir ki, Azərbaycan son 30 ildə dünya erməniliyi və işğalçı Ermənistana havadarlıq edən qüvvələrlə mübarizə apardığı yolda çox ağır sınaqlardan keçdi, xristian təəssübkeşliyi fonundakı təzyiqlərə duruş gətirdi. Bütün təhdidlərə, çirkin kampaniyalara cavab verdi, ikili standartlara məruz qalsa da, bir an belə geri çəkilmədiyi, vaz keçmədiyi ümummilli məsələdə tərəddüd etmədən siyasi meydanlarda da, savaş cəbhəsində də qətiyyət nümayiş etdirdi və sonunda ədalət zəfər çaldı.

Ümummilli Lider Heydər Əliyev uzaqgörənlik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü, sağlam təməllər yaratdı. Azərbaycanın inkişaf strategiyasını, yüksəlişinin yol xəritəsini hazırladı. Bu strategiyanı uğurla davam etdirən layiqli varisi İlham Əliyev isə yeni əsrin qüdrətli lideri kimi Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi.

Məhz cənab İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətlə Azərbaycanın təkcə son 20 ildə əldə etdiyi tarixi uğurları, möhtəşəm zəfərləri deyərdik ki, dünyanın bir çox ölkəsi son 100 ildə qazana bilməyib.

Azərbaycan xalqını tarixində bənzərinə rastlanmayan qələbə günlərinə qovuşduran Prezident İlham Əliyev adını tariximizə Qarabağın xilaskarı, suverenliyin təminatçısı, ən qüdrətli Sərkərdə kimi yazdırıb.

20 il öncə - 2003-cü il oktyabrın 31-də Prezident kimi əlini "Qurani-Kərim"ə basaraq and içən cənab İlham Əliyev xalqa söz vermişdi ki, Ulu Öndərin müəyyənləşdirdiyi strategiyanı davam etdirəcək və Azərbaycanı möhtəşəm zəfərlərə doğru aparacaq. Azərbaycan Ermənistanın işğalçı siyasəti ilə barışmayacaq və nəyin bahasına olursa-olsun işğal altında olan torpaqlarını azad edəcək. Möhtərəm Prezidentimizin 20 illik fəaliyyətinin əsas mahiyyəti də məhz bu iki ftkrin doğrulmasına yönəldi. Bu fikirlər, əslində, Ulu Öndərin cənab Prezident qarşısında müəyyənləşdirdiyi tarixi vəzifələr idi. Ümummilli Liderin özü qədər inandığı cənab İlham Əliyevə xalqımız da inandı, güvəndi, etimad göstərdi və həyata keçirdiyi siyasətlə möhtərəm Prezidentimiz tarixin ən qüdrətli Azərbaycanını qurdu.

Ulu Öndərin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri cənab İlham Əliyev başa çatdırdı və Azərbaycanın tam suverenliyini təmin edən zəfərlərlə dünyaya gücünü, qüdrətini göstərdi.

Əlbəttə ki, xalqımızın ən böyük problemi keçmiş Dağlıq Qarabağ münaqişəsi idi. Bu problemin sülh yolu ilə həlli məsələsi Prezident İlham Əliyevin yürütdüyü siyasətin prioriteti oldu. Bütün beynəlxalq konfranslarda Azərbaycan həqiqətlərini dünyaya bəyan edən qətiyyətli Prezidentimiz Ermənistanın işğalçı dövlət kimi tanınmasına müvəffəq oldu. Bununla bağlı qətnamələr, qərarlar qəbul edildi. Amma həmin sənədlər uzun illər kağız üzərində qaldı, icrası təmin edilmədi. İşğalçı Ermənistan isə bu cəzasızlıq mühitindən lazımınca yararlandı və hətta bu ölkə elə zənn edirdi ki, Azərbaycan mövcud vəziyyətlə həmişəlik barışıb.

Lakin zaman yetişdi və möhtərəm Prezidentimiz bütün sözlərinə sadiq lider kimi 2003-cü ildə xalqa verdiyi vədini də gerçəkləşdirdi. 2020-ci ildə düşmənin işğalçılıq siyasətinə son qoyan Zəfər yürüşümüz dünyaya səs saldı. Bəşəriyyətə bəlli oldu ki, xalqımız əzəli torpaqlarından heç zaman vaz keçməyib və sonunda güc yolu ilə məsələni həll etmək üçün yumruq kimi birləşərək mübarizəyə qalxıb.

Yəqin ki, çoxları 2020-ci ilin sentyabr-oktyabr aylarını yaxşı xatırlayır. 44 günlük Vətən müharibəsi başlayanda Azərbaycan Prezidentinə müxtəlif istiqamətlərdən təzyiqlərə cəhd edilirdi. Cənab İlham Əliyev dünyada elə aparıcı KİV qalmadı ki, ona müsahibə verməsin. Onların əksəriyyətində Azərbaycan Prezidentinə verilən qərəzli suallardan da hər şey aydın olurdu. Amma mahir diplomat kimi cənab İlham Əliyevin veridyi tutarlı, arqumentli cavablar əsl həqiqəti ortaya çıxarırdı.

Qarabağ Azərbaycan üçün vazkeçilməz idi, şərəf, ləyaqət məsələsi idi. Bunu cənab İlham Əliyev hər dəfə dünyaya bəyan edirdi. Azərbaycan xalqının 30 ildə nədən bu mübarizədən vaz keçməməsinin əsl səbəbini Müzəffər Ali Baş Komandan 2020-ci il oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalının müxbirinin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?" sualına cavabında da çox mükəmməl şəkildə izah vermişdi: "Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Sözü imzası qədər keçərli olan Müzəffər Ali Baş Komandan bu haqq savaşında ortaya qoyduğu qətiyyətlə Azərbaycanı Zəfərə apardı. İllərlə Qarabağda istehkamlar quran, özü haqqında miflər yaradan Ermənistanın ordusu cəmi 44 günə düz çökdü və noyabrın 8-də Şuşanın azadlığı günü təslim olduğunu bəyan etdi.

Həmin gün Müzəffər Ali Baş Komandan 30 il ərzində başı bəlalar çəkən, terrora, işğala məruz qalan, sülh istədiyi üçün ikili standartlarla, təzyiqlərlə, təhdidlərlə üzləşən, haqqı tapdanan, səsi eşidilməyən, lakin öz liderinə inanaraq səbirlə gözləyən xalqına ən böyük müjdəni verdi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!"

2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Şanlı Zəfər Ali Baş Komandan İlham Əliyevin prezidentlik dönəmində qazandığı uğurların zirvəsi oldu.

## Erməni yalanları, Azərbaycanın qətiyyəti, suverenliyin tam təminatı

Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, tərəflər üzərlərinə öhdəliklər götürdü. Ermənistan hər zamankı kimi iyrənc xislətini yenə də ortaya qoydu. Böyük Qələbədən sonra regionda yaranan yeni reallıqlara uyğun siyasət yürüdən Prezident İlham Əliyev qalib olmasına baxmayaraq, yenə də humanist siyasətini nümayiş etdirməklə məğlub Ermənistana qurtuluş yolu göstərdi - sülh müqaviləsini imzalamağı təklif etdi.

Lakin bütün zamanlarda vaxtdan istifadə edərək Azərbaycana zərbə vurmaq, şər atmaq kimi əməllərindən çəkinməyən Hayastan yenə də ampluasına sadiq qalaraq eyni ssenarini davam etdirdi. Ölkə liderləri arasında aparılan sülh danışıqlarında Ermənistan rəhbərliyi dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, əməldə bunu təsdiqləyəcək addım atmadı. Havadarlarına arxalanıb qeyri-qanuni yollarla Qarabağa silah-sursat daşınması prosesini həyata keçirdi. Dəfələrlə hərbi təxribatlar törətdi. Amma hər dəfə layiqli cavabını alaraq geri çəkildi. "Qisas", "qətiyyətli cavab əməliyyatı" bunu təsdiqləyən reallıqdır.

Ermənistanın sülhdən yayınması Azərbaycanın müəyyən tədbirlərə əl atmasını şərtləndirdi. 2023-cü il aprelin 23-də Laçın rayonunda sərhəd-buraxılış məntəqəsi yaradıldı və bununla da ərazi bütövlüyümüz təmin edildi. Ermənistan və onun arxasında dayananlar ölkəmizə qarşı müxtəlif fitnələr ortaya atdılar. Amma heç bir təzyiq Azərbaycanı yolundan döndərə bilmədi.

Bəziləri düşünürdü ki, üçtərəfli Bəyanatla təsbit edilmiş status-kvonu Azərbaycan dəyişməyə cürət etməyəcək və əksər ərazilərlə Şuşanın azad edilməsi maksimal hədd olacaq. Onlar bunu belə əsaslandırırdılar ki, beynəlxalq aləm ermənilər yaşayan Azərbaycan ərazisində hər hansı əməliyyat keçirməyə və bu ərazilər üzərində Azərbaycanın nəzarətini bərpa etməyə imkan verməyəcək. Həmin dövrdə əsasən Fransa, ABŞ və Qərb ölkələrinin tutduğu mövqe, verilən bəyanatlar belə proqnozlar üçün ciddi əsaslar yaratmışdı. Ermənistanın havadarları 30 illik işğal dövründə olduğu kimi, bu mərhələdə də vəziyyətin qeyri-müəyyən qalmasında maraqlı oldular. Məqsəd Prezident İlham Əliyevi planlarından çəkindirmək və Azərbaycanın öz ərazisi üzərində tam suverenliyini bərpa etməsinə imkan verməmək, 2020-ci ilin nəticələri ilə kifayətlənməyə məcbur etmək idi.

Heç vaxt başladığı işləri yarımçıq qoymayan və bütün fəaliyyəti boyunca "nəyi nə zaman və necə" etməyin ən yaxşı nümunələrini göstərən Azərbaycan Prezidentinin suverenlik və ərazi bütövlüyü anlayışı heç bir zaman müharibənin nəticələri ilə məhdudlaşmadı, sonrakı 3 il ərzində həyata keçirilən siyasət və görülən bütün işlər prosesin davamı oldu və 2023-cü il sentyabrın 20-də öz məntiqi sonluğuna çatdı. Bütün təzyiqlərə baxmayaraq, Prezident İlham Əliyev uzaqgörənliklə, praqmatik şəkildə, barışmaz prinsipiallıq və qəti iradə nümayiş etdirərək Xankəndidə Azərbaycanın Dövlət Bayrağının asılacağı günü yaxınlaşdırdı.

2023-cü il sentyabrın 20-də cəmi 23 saat ərzində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin təslim olmağa məcbur edilməsi, Qarabağdakı cinayətkar rejimin özünü buraxması, oktyabrın 15-də isə Xankəndidə, Xocavənd şəhərində, Xocalıda, Ağdərədə Azərbaycan bayrağının ucaldılması öz tarixi əhəmiyyətinə görə 44 günlük müharibə və 8 Noyabr - Zəfər Gününə bərabər növbəti parlaq Qələbə oldu. 2023-cü il sentyabrın 20-də əldə olunan Qələbə siyasi və mənəvi əhəmiyyətinə görə Zəfər Gününə bərabər və onu tamamlayan tarixi hadisə kimi yaddaşlara yazıldı.

Müzəffər Ali Baş Komandan İlham Əliyev müharibədən sonrakı 3 il ərzində tarixi əhəmiyyət kəsb edən bir proses reallaşdırdı və üzərinə götürdüyü tarixi missiyanı başa çatdırdı. Bununla da cənab İlham Əliyev 200 illik erməni xülyasının üzərindən birdəfəlik xətt çəkdi.

## Ali ehtiram, dövlət qayğısı, Böyük qayıdış

Son 3 illik tarixə nəzər yetirsək, görərik ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən tikinti-quruculuq işləri həyata keçirir. Özü də yalnız Azərbaycanın öz iqtisadi qüdrəti hesabına. Yəni heç bir beynəlxalq maliyyə qurumu, heç bir dövlətdən yardım almadan işğaldan azad edilmiş torpaqlarımızda xariqələr yaradılır.

Bu gün həm də Qarabağ və Şərqi Zəngəzurda tarixi-dini və mədəni abidələrimizin bərpası prosesləri də davam etdirilir. Bu prosesdə məxsusi olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əvəzedilməz layihələri - mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyasını xüsusi vurğulamaq lazımdır. Mehriban xanım Əliyevanın göstərişi ilə 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan dini abidələrimiz, məscidlərimiz yenidən həyata qaytarıldı və bu istiqamətdə proseslər indi də davam etdirilir.

Ümumiyyətlə, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən çox əhəmiyyətli layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər kəs tərəfindən dəyərləndirilir. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev Fondu qədim Qarabağ və Şərqi Zəngəzur torpaqlarında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə tariximizə çox böyük töhfə verir.

Xalqımız, dövlətimiz həmçinin bütün dövrlərdə Böyük Zəfərin təminatçıları, torpaqlarımızın azadlığını qanları bahasına təmin edən şəhidlərimizin xatirəsini hər zaman uca tutub ehtiramla yad edir, onların ailələrinə xüsusi qayğı göstərir. Cəmiyyətimizdə şəhidlərin yeri ən ali məqamdadır. Həm dövlətimiz, həm də cəmiyyətimiz onlara layiq olduqları qiyməti verir. İstər şəhid ailələri, istərsə də qazilər və veteranlar hərtərəfli dövlət qayğıları ilə əhatə olunublar.

Prezident və Mehriban xanım Əliyevanın çağırışı ilə şəhid ailələri və qazilərimizə layiqli xidmətlərin göstərilməsi prosesi bu gün də davam etdirilir. Postmüharibə dövründə şəhid ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı qəbul olunan sosial paketlərə diqqət etsək görərik ki, dövlət bu kateqoriyadan olan şəxslərə xüsusi qayğını əsirgəmir.

Ümumiyyətlə, dünyada Azərbaycan dövləti qədər şəhidlərinə ali dəyər verən, onların ailələrinə hərtərəfli kömək göstərən ölkə yoxdur. Bu istiqamətdə dövlətimiz bir nümunədir. Qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunurlar. Qazilərin məişət problemləri də davamlı olaraq öz həllini tapır.

İndiyədək 13 900 şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Müharibə əlillərinə 7 500-dən artıq minik avtomobili verilib. Şəhid ailəsinin üzvləri və müharibə iştirakçıları olan 19,2 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,1 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 234 şəxs üzrə birdəfəlik ödəmə verilib. Onlara verilən sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Aydın görürük ki, dövlətimiz onlara lazım olan hər cür dəstəyi verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və üzv təşkilatları tərəfindən də bu istiqamətdə mühüm işlər həyata keçirilir. AHİK və onun üzv təşkilatları tərəfindən Vətən müharibəsi dövründə Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına ianələr edilib. Naxçıvan Muxtar Respublikasında yaşayan, döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuş şəhid ailələrinə kömək göstərilməsi məqsədilə muxtar respublikanın Həmkarlar İttifaqları Şurasına, Qarabağ Dirçəliş Fonduna, Silahlı Qüvvələrə və cəbhə bölgəsinə, "YAŞAT" Fonduna ianə edilib, şəhid və qazi ailələrinə birdəfəlik yardımlar göstərilib.

Hazırda 353 şəhid övladı AHİK-in himayəsindədir, 18 yaşına çatana qədər onlara maddi dəstək göstəriləcək. 2022-ci ildə və 2023-cü ilin ilk 6 ayı ərzində AHİK və üzv təşkilatları tərəfindən 2056 nəfər şəhid ailəsi üzvünə, qaziyə, müharibə veteranına pulsuz yollayış verilib. Bu il noyabrın 6-da AHİK tərəfindən 8 Noyabr - Zəfər Günü münasibətilə respublikanın rayonlarında yaşayan 4 200 aztəminatlı ailə, o cümlədən şəhid və qazi ailələri üçün ərzaqla dolu avtomobil karvanı yola salınıb. Bundan başqa, noyabrın 3-də Naxçıvan Muxtar Respublikasında yaşayan həmin kateqoriyadan olan 1 250 ailəyə bayram sovqatı verilib. Bununla da AHİK-in 2020-ci ildən indiyə kimi yardım göstərdiyi ailələrin sayı 51 915-ə çatıb.

## Azadlığın təntənə günləri, daha möhtəşəm zəfərlərə doğru

Artıq 3 ildir ki, Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yenidən quraraq Böyük qayıdış proqramının icrasını reallaşdırır. Minlərlə keçmiş məcburi köçkün soydaşımız öz doğma el-obasına dönüb və proses bu gün də davam etdirilir. Bu gün Zəngilanda, Laçında, Füzulidə, Talışda həyat yenidən qaynayır. Ardıcıl olaraq soydaşlarımızın köç karvanı üzü Qarabağa, Zəngəzura doğru hərəkət edir.

Bu il iyulun 31-də Prezident İlham Əliyev şanlı zəfərin yaratdığı reallıqlar fonunda yeni sərəncam imzalayaraq işğaldan azad edilmiş ərazilərimiz üzrə şəhər günləri təsis edib - 26 Avqust - Laçın Şəhəri Günü, 4 Oktyabr - Cəbrayıl Şəhəri Günü, 17 Oktyabr - Füzuli Şəhəri Günü, 20 Oktyabr - Zəngilan Şəhəri Günü, 25 Oktyabr - Qubadlı Şəhəri Günü, 8 Noyabr - Şuşa Şəhəri Günü, 20 Noyabr - Ağdam Şəhəri Günü, 25 Noyabr - Kəlbəcər Şəhəri Günüdür.

Bu, Şanlı Zəfərimizin yaratdığı gerçəklikdir. Artıq xalqımız torpaqlarımızın işğal tarixlərinin ağrılı-acılı, nisgilli günlərini deyil, azadlıq tarixlərinin sevincini bir-biri ilə paylaşaraq xoşbəxt bayram günlərini qeyd edir.

Tarixi faktlar, reallıqlar göstərir ki. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2023-cü illər çoxəsrlik milli dövlətçilik tariximizə bənzəri olmayan qızıl dövr kimi yazılıb. Əsrlərlə bölünmüş, ağır məhrumiyyətlərə məruz qalmış, amma öz qürurunu və milli dövlətçilik ənənələrini qoruyub saxlamış Azərbaycan xalqının həyatında silsilə qələbələr, misli görünməmiş yüksəliş və tərəqqi illəri olub.

Hər zaman xalqın maraqlarını təmin edən siyasət yürüdən, onun mərkəzində Azərbaycan vətəndaşı dayanan möhtərəm Prezidentimiz qətiyyətli və uzaqgörən diplomatiyası ilə ölkəmizi daha işıqlı sabaha aparır. Xalqımız da hər zaman Prezident İlham Əliyevə dəstək olur, ətrafında sıx birləşərək ardınca daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

Fəxarətlə deyə bilərik ki, İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək prinsipləri dayandı. Azərbaycanın bütün sahələrdə qazandığı misilsiz uğurlar Ümummilli Lider Heydər Əliyev siyasətinin təntənəsidir. Çünki dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 20 il ərzində Azərbaycan xalqı həmişə Ulu Öndərin layiqli varisinə güvənib, ona ən güclü dayaq olub.

*Bir sözlə, memarı Müzəffər Ali Baş Komandanımız İlham Əliyev olan möhtəşəm Qələbə başımızın ucalığı, alnımızın açıqlığı, əbədi qürurumuzdur. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik kursuna uyğun olaraq Azərbaycanın sözün əsl mənasında tam suverenliyini təmin edən möhtərəm Prezidentimiz xalqına verdiyi bütün vədlərə sadiqlik nümayiş etdirib. Qədirbilən xalqımız isə hər zaman öz Prezidentinə inanıb, güvənib və bütün dövrlərdə dövlət başçısına öz dəstəyini nümayiş etdirib. Şübhəsiz ki, bu cür qarşılıqlı inam şəraitində qətiyyətli Liderimiz hələ uzun illər Azərbaycanı daha yüksək zirvələrə və böyük qələbələrə aparacaq. Azərbaycan tarixinin ən qüdərtli dövründə misilsiz nailiyyətlər qazanacaq.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Gələn ilin dövlət büdcəsi milli prioritetlərin uğurla reallaşmasını təmin edəcək

Noyabrın 6-da Milli Məclisin Sədr müavini Adil Əliyevin sədrliyi ilə keçirilən Gənclər və idman, Əmək və sosial siyasət, Aqrar siyasət, Regional məsələlər, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda müzakirə olunub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev qarşıdan gələn Zəfər Günü və Bayraq Günü münasibəti ilə iclas iştirakçılarını təbrik edib.

Vitse-spiker bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistan üzərində əldə etdiyi Zəfərin üçüncü ildönümü ərəfəsində Qarabağda həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları ilə dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası təmin edilib. O qeyd edib ki, bu əlamətdar hadisələr iclasın mövzusu ilə birbaşa əlaqədardır. Vitse-spiker bildirib ki, müzakirəyə təqdim olunmuş 2024-cü ilin dövlət büdcəsində tarixi qələbəmizin qazanılması üçün böyük şücaətlər göstərmiş ordumuzun və hərbi qulluqçularımızın təminatı məsələlərinə böyük diqqətin ayrılması xüsusi əhəmiyyət daşıyır.

Gələn ilin büdcə layihəsində iki əsas məsələnin də öz aktuallığını qoruduğunu vurğulayan Adil Əliyev işğaldan azad olunmuş ərazilərə Böyük qayıdışın həyata keçirilməsi və əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması tədbirləri ilə bağlı fikirlərini bölüşüb.

Sonra maliyyə naziri Samir Şərifov çıxış edərək bildirib ki, 2024-cü ilin dövlət büdcəsi layihəsində iqtisadi inkişafla bağlı prioritetlər diqqətə alınmaqla, işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışının həyata keçirilməsi, şanlı ordumuzun və ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, dövlətimizin əsas funksiyalarının maliyyələşdirilməsi, əhalinin sosial müdafiəsi və digər tədbirlərin davam etdirilməsi kimi məsələlər prioritet xərc istiqamətləri kimi nəzərdə tutulub.

Nazir diqqətə çatdırıb ki, 2024-cü ilin dövlət büdcəsinin 36 milyard 763 milyon manat təşkil edən xərclərinin 51,2 faizi və ya 18 milyard 833 milyon manatı məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün ayrılıb. Dövlət büdcəsi xərclərinin prioritet istiqamətlərindən olan müdafiə və milli təhlükəsizlik xərclərinə 17,5 faiz və ya 6 milyard 421 milyon manat məbləğində vəsait nəzərdə tutulub ki, bu da 2023-cü illə müqayisədə 6 faiz və yaxud 366 milyon manat çoxdur.

Qeyd olunub ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair birinci dövlət proqramının icrası üçün 4 milyard manat, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsinə 1 milyard 509 milyon manat, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrası üçün 249 milyon manat vəsait yönəldiləcək.

Samir Şərifov bildirib ki, 2024-cü ildə dövlət büdcəsi xərclərinin 43 faizi və ya 15 milyard 773 milyon manatı sosialyönümlü xərclərin maliyyələşdirilməsinə istifadə olunacaq. Cari ilin müvafiq göstəriciləri ilə müqayisədə bu, 1 milyard 35 milyon manat və ya 7 faiz çoxdur. Əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ildə 4 milyard 542 milyon manat vəsait nəzərdə tutulub, bu da cari illə müqayisədə 226 milyon manat və yaxud 5,2 faiz çoxdur.

2024-cü ildə Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət büdcəsindən 1 milyard 392 milyon manat vəsaitin ayrılacağını deyən maliyyə naziri eyni zamanda keçmiş məcburi köçkünlərin sosial müdafiəsinin təmini üçün 355 milyon manat vəsaitin nəzərdə tutulduğunu bildirib.

2024-cü ildə dövlət büdcəsindən bədən tərbiyəsi və gənclər siyasətinin həyata keçirilməsi üçün 71 milyon manat, kənd təsərrüfatı üçün 1 milyard 110 milyon manat, ətraf mühitin və təbiətin mühafizəsi üçün 377 milyon manat, mənzil və kommunal xərclər üçün 365 milyon manat ayrılacağını söyləyən nazir bu vəsaitlərin strukturu haqqında məlumat verib.

Gələn il dövlət büdcəsinin yerli gəlirlərinin 773 milyon manat olmaqla, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən onun balanslaşdırılması üçün 9 milyon manat ayrılacağını deyən Samir Şərifov bələdiyyələr üçün layihədə 12,5 milyon manat (cari illə müqayisədə 9,7 faiz artım) vəsaitin nəzərdə tutulduğunu bildirib.

Diqqətə çatdırılıb ki, 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır.

İcmal büdcədə Dövlət Neft Fondunun gəlirləri 12 milyard 73 milyon manat, xərcləri isə 12 milyard 862 milyon manat təşkil edəcək. Növbəti ildə gəlirləri və xərcləri bərabər olmaqla, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 920 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi 2 milyard 811 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 238 milyon manat nəzərdə tutulub. Naxçıvan Muxtar Respublikasının büdcəsi 516 milyon manat təşkil edəcək.

Bildirilib ki, 2024-cü il üçün dövlət büdcəsinin parametrləri ölkəmizin müdafiəsi və milli təhlükəsizliyi, Böyük qayıdışın uğurla həyata keçirilməsi, dövlətimizin hərtərəfli inkişafı və digər prioritet hədəfləri üçün maliyyə təminatı yaradacaq.

İclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qanun layihəsinin büdcə qaydasına uyğunluğundan danışıb, 2024-cü ilin dövlət büdcəsi layihəsinin və bu layihə ilə birlikdə təqdim olunan sənədlərin "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun hazırlandığını deyib. Palata sədri bu sənədlərdə tətbiq edilən yeniliklərdən, büdcə sənədləşməsinin keyfiyyətinin artırılması istiqamətində atılan addımlardan bəhs edib. O bildirib ki, 2024-cü ilin dövlət büdcəsi ilə birlikdə təqdim olunmuş makroiqtisadi çərçivəyə əsasən, növbəti il ölkə iqtisadiyyatında əlverişli makroiqtisadi mühitin müşahidə ediləcəyi proqnozlaşdırılır.Vüqar Gülməmmədov Palatanın 2024-cü ilin dövlət büdcəsinin layihəsinə dair rəyini, büdcə parametrləri üzrə qeydlərini və bəzi maddələr üzrə dəqiqləşdirmə xarakterli təkliflərini təqdim edib.

Sonra iclasda 2024-cü ilin dövlət büdcəsi layihəsi ilə bağlı Milli Məclisin komitə sədrləri öz fikirlərini açıqlayıblar.

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, dünyada baş verən kataklizmlərə, qlobal iqtisadiyyatdakı böhrana baxmayaraq, Azərbaycan iqtisadiyyatı davamlı şəkildə inkişaf edir, ölkədəki sosial məsələlərin həllinə, yeni iş yerlərinin açılmasına, abadlıq-quruculuq işlərinə xüsusi diqqət göstərilir. Siyavuş Novruzov 2024-cü ilin dövlət büdcəsi layihəsində regionların büdcədən asılılığının ciddi şəkildə azalmasını yüksək qiymətləndirib, yerlərdə yığılan vəsaitlərin artıq qalan hissələrinin müəyyən faizinin yerli büdcələrdə saxlanılması, müharibə veteranlarının sosial təminatının yaxşılaşdırılması və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov növbəti ilin dövlət büdcəsində sosial sahəyə, xüsusən işğaldan azad edilmiş ərazilərdə geniş bərpa-quruculuq işlərinə xüsusi diqqətin ayrılmasından təqdirlə bəhs edib. Komitə sədri büdcədə ətraf mühitin və təbiətin mühafizəsi, bioloji zənginliyin qorunması kimi sahələrə ayrılan vəsaitlərlə bağlı fikirlərini bölüşüb, tullantıların idarə olunması, təmiz şəhər modelinin regionlarda da həyata keçirilməsi, qlobal iqlim dəyişikliklərinin təsirlərinin azaldılması, su çatışmazlığı probleminin həlli, yaşıl enerji konsepsiyasının inkişaf etdirilməsi və digər məsələlərlə bağlı qeydlərini səsləndirib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, 2024-cü ilin dövlət büdcəsi postmünaqişə dövrünün tələblərinə və işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində qarşıya qoyulan məsələlərin həllinə yönəlik maliyyələşmə mexanizmlərini və imkanlarını özündə əks etdirir. Komitə sədri gələn ilin büdcəsinin sosialyönümlülüyünə diqqət çəkərək, büdcənin 43 faizinə çatan həmin vəsaitlərin müstəqillik dövrümüzdə bu istiqamətdə ən böyükhəcmli vəsait olduğunu vurğulayıb. Musa Quliyev büdcədə sosialyönümlü xərclərin öz prioritetliyini qoruyub saxlamasını Azərbaycan vətəndaşlarının sosial rifahının daim diqqətdə saxlanılmasının göstəricisi kimi xarakterizə edərək, aztəminatlı vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi kimi məsələlərlə bağlı qeydlərini diqqətə çatdırıb.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev növbəti ilin dövlət büdcəsinin bu günün reallıqlarını özündə əks etdirdiyini, düşünülmüş proqnozlara əsaslandığını bildirib. Komitə sədri sosial siyasət, müdafiə və təhlükəsizlik, Böyük qayıdış dövlət proqramı istiqamətləri üzrə xərclərin artırılmasını yüksək dəyərləndirib. O, büdcə layihəsində 1 milyard 110 milyon manatlıq vəsaitin kənd təsərrüfatına ayrılmasını təqdir edib, təbii fəlakətlərin kənd təsərrüfatına vurduğu ziyan nəticəsində zərərçəkənlərə yardımların artırılması ilə bağlı fikrini bildirib.

Sonra 2024-cü ilin dövlət büdcəsinin layihəsi ətrafında geniş müzakirələr aparılıb.

Müzakirələrdə çıxış edən Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini Məlahət İbrahimqızı, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini Asim Mollazadə, Gənclər və idman komitəsi sədrinin müavini Şahin İsmayılov, Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini Jalə Əliyeva, deputatlar Ramil Həsən, Rauf Əliyev, Soltan Məmmədov, Naqif Həmzəyev, Vüqar İskəndərov, Sevinc Hüseynova, İltizam Yusifov büdcə layihəsi, onun parametrləri, proqnoz göstəriciləri, gəlirləri, xərc istiqamətləri kimi məsələlərlə bağlı rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Müzakirələri Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev yekunlaşdırıb və "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İstanbulda Türk Xəbər Agentlikləri Alyansı yaradılıb

İstanbulda Türk Xəbər Agentlikləri Media Zirvə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, "Media və gələcəyə baxışda birlik" mövzusunda baş tutan tədbirdə ölkəmizi Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyətinin sədri Vüqar Əliyev təmsil edib.




Tədbirin açılış mərasimində çıxış edən Türkiyənin Anadolu Agentliyinin İdarə Heyətinin sədri və Baş direktoru Serdar Karagöz, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım türkdilli ölkələrlə bağlı xəbərlərin daha geniş miqyasda çatdırılması və səsimizin daha gur eşidilməsi baxımından birliyin vacibliyini vurğulayıblar. Bildirilib ki, beynəlxalq ictimaiyyətin türk dünyasına baxışını dəyişəcək ölkələrimizin media birliyi fikirlərimizin, ortaq miras və mədəniyyətimizin dünyaya çatdırılmasında əsas rol oynayacaq.

Çıxışlarda birliyin yaradılması tarixi an kimi qiymətləndirilib, bunun həm də ölkələrimiz arasında qardaşlıq bağlarının daha da güclənməsi baxımından əhəmiyyəti vurğulanıb. Dövlətlərimizin başçıları İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın da iştirakı ilə 2021-ci ildə Türk Dövlətləri Təşkilatının İstanbul Zirvəsi xatırlanıb, bu tədbirin türkdilli ölkələr arasında birliyin əsas dönüş nöqtələrindən biri olduğu bildirilib.

Birliyin ortaq fəaliyyəti daha da gücləndirəcəyini əminliklə ifadə edən natiqlər dezinformasiya ilə mübarizənin də önəmini vurğulayıblar. Qeyd edilib ki, rahat həll olunacaq məsələləri çıxılmaz vəziyyətə gətirən məhz dezinformasiyadır. Dünyanın bir sıra ölkələrində islamofobiya, irqçilik halları yaşanmaqdadır. Bəzən haqlı olduğumuz mövzularla bağlı beynəlxalq səviyyədə dezinformasiyalar yayılır. Bu baxımdan ölkələrimizin TDT ətrafında sıx birləşərək dezinformasiyaya qarşı mübarizə aparması çox vacibdir.

Sonra Türk Xəbər Agentlikləri Alyansının (ATNA) yaradılması barədə Bəyannamə imzalanıb.

Zirvə görüşü işini davam etdirir.

# AZƏRTAC ilə Anadolu Agentliyi arasında əməkdaşlığa dair yeni müqavilə imzalanıb

İstanbulda keçirilən Türk Xəbər Agentlikləri Alyansının (ATNA) I Baş Assambleyası çərçivəsində Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Anadolu Agentliyi arasında əməkdaşlığa dair yeni müqavilə imzalanıb.

Sənədi AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və Anadolu Agentliyinin İdarə Heyətinin sədri, Baş direktoru Serdar Karagöz imzalayıblar.

Yeni müqavilə yazılı xəbərlə yanaşı, qarşılıqlı foto və video mübadiləsini də nəzərdə tutur. Sənədə əsasən, iki agentlik arasında təcrübə mübadiləsi və texniki dəstək də həyata keçiriləcək.

# Büdcə zərfinə daxil olan bir sıra qanun layihələri müzakirə olunub

Noyabrın 6-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin payız sessiyasında növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Tahir Mirkişili iclasın gündəliyinə birinci oxunuşda olan 7 məsələnin daxil edildiyini, bunlardan 6-sının 2024-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri olduğunu söyləyib.



Tahir Mirkişili əvvəlcə gündəliyin birinci məsələsi - Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə fikirlərini açıqlayıb. O bildirib ki, 2024-cü ilin dövlət büdcəsində gəlirlərin 14 milyard manatı Dövlət Vergi Xidmətindən yığılan gəlirlərə aiddir. Bunun 10 milyard manatı qeyri-neft sektorundan, 4 milyard manatı isə neft sektorundan yığılan vergilərə aiddir. Komitə sədri Vergi Məcəlləsinə edilən dəyişikliklərin əksəriyyətinin sahibkarlıq sahəsində edilən güzəştlərlə bağlı olduğunu deyib. Bildirib ki, ümumilikdə təklif edilən dəyişikliklərdə güzəştlərin ümumi həcmi növbəti il üçün 80 milyon manata yaxındır.

Komitə sədri qeyd edib ki, bu gün şəffaflığın artırılması yönündə iqtisadi proseslərin təşviq olunması, sosial siyasət sahəsində aparılan islahatlar sosial xarakterli tədbirlərin həcminin artırılmasına imkan verir. O bildirib ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bu sahədə güzəştlərlə bağlı konkret hədəflər mövcuddur. Bütövlükdə Vergilər Məcəlləsinə edilən dəyişikliklər ölkədə biznes mühitinin inkişafına, etimad mühitinin güclənməsinə, habelə dövlət büdcəsinin gəlirlərinin artmasına xidmət edir.

Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli bildirib ki, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin əsas məqsədi biznes yükünün optimallaşdırılması, sahibkarlıq subyektlərinin fəaliyyəti üzrə vergi güzəştlərinin hədəfli tətbiqi, kölgə iqtisadiyyatının əhatə dairəsinin daraldılması, vergi orqanlarının risk əsaslı nəzarət sisteminin qurulması, mikro sahibkarlıq subyektlərindən kiçik sahibkarlıq subyektlərinə keçidin stimullaşdırılması, sosial dəstək mexanizmləri vasitəsilə əhalinin maliyyə-vergi yükünün azaldılmasıdır. Dəyişikliklər, əsasən, maliyyə, səhiyyə, kənd təsərrüfatı, turizm, nəqliyyat və digər sektorları əhatə edir. Təklif olunan dəyişikliklər nəticəsində dövlət büdcəsinə 121,5 milyon manat gəlir, 79,5 milyon manat itki, ümumilikdə isə 42 milyon manat büdcə daxilolmaları gözlənilir.

Dövlət Vergi Xidmətinin baş idarə rəisi Nicat İmanov Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər barədə ətraflı məlumat verib. O, məcəlləyə edilən dəyişikliklərin 71 əsas maddə üzrə 201 alt-maddədən ibarət olduğunu deyib. Bildirilib ki, layihədə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin təkmilləşdirilməsi, vergitutma bazasının genişləndirilməsi və vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi istiqamətləri üzrə dəyişiklikləri əhatə edən müddəalar öz əksini tapıb. Dəyişikliklərin bir çox sahələri, o cümlədən maliyyə, səhiyyə, kənd təsərrüfatı, lizinq, nəqliyyat sektorlarını əhatə etdiyi qeyd olunub.

Sonra Nicat İmanov sözügedən istiqamətlər üzrə Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklər barədə slaydlar vasitəsi ilə təqdimatı diqqətə çatdırıb.

Mərkəzi Bank sədrinin birinci müavini Rəşad Orucov maliyyə-bank sistemi ilə bağlı təklif olunan dəyişikliklər barədə fikirlərini söyləyib. O, fiziki şəxslərin depozitlərinin faiz dərəcələri üzrə verilən güzəştlərin mahiyyəti barədə danışıb. Qeyd edib ki, layihəyə hər bir bankda milli valyutada olan əmanətlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsinin fiziki şəxslərin gəlir vergisindən azad edilməsi ilə bağlı müddəa əlavə edilib. Bununla yanaşı, layihədə əmanətlərin uzunmüddətli yerləşdirilməsinin təşviq edilməsi məqsədilə banklar tərəfindən fiziki şəxslərin depozitlərinin 18 ay və daha çox müddətə yerləşdirilməsi ilə bağlı güzəştlərin nəzərdə tutulduğu qeyd olunub. Rəşad Orucov çıxışında İcbari Sığorta Bürosu ilə bağlı məsələyə də toxunub və qurumun icbari sığorta sisteminin sabitliyinin və inkişafının təmin edilməsində rolundan danışıb.

Sonra Vergi Məcəlləsinə edilən dəyişikliklərlə bağlı müzakirələr aparılıb. Komitənin sədr müavini Əli Məsimli, üzvləri Mahir Abbaszadə, Vahid Əhmədov, Vüqar Bayramov, Məşhur Məmmədov, Rüfət Quliyev, Aydın Hüseynov sənədin mükəmməl hazırlandığını, təklif olunan düzəlişlərin mühüm əhəmiyyət kəsb etdiyini bildiriblər. Millət vəkilləri bəzi qeyd və təkliflərini də diqqətə çatdırıblar.

Müzakirələrin sonunda Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub. Sonra komitə sədri Tahir Mirkişili gündəlikdəki digər 6 məsələni təqdim edib.

Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı bildirilib ki, sənəddə məhdud məsuliyyətli və ya səhmdar cəmiyyətlərinə qarşı pul tələbinə malik olan şəxslərin pul tələblərini əvəzləşdirməklə nizamnamə kapitalına maya qoyması və ya əlavə buraxılmış səhmləri əldə etməsi, maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə isə bu prosesin maliyyə bazarlarını tənzimləyən qanunlarda mühüm iştirak payının əldə olunmasına dair tələblər nəzərə alınmaqla həyata keçirilməsi ilə bağlı müddəalar nəzərdə tutulub. Həmçinin layihədə məhdud məsuliyyətli və ya səhmdar cəmiyyətlərinə qarşı pul tələbinə malik olan şəxslərin pul tələblərinin əvəzləşdirilməsi mexanizmi nəzərdə tutulub.

Növbəti məsələdə - "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihədə bildirilir ki, qanunun 3.4.11-ci və 3.4.12-ci maddələrində göstərilən tələblər bir nəzarət-kassa aparatının çeki üzrə hesablaşmalara şamil edilir.

Digər iki məsələ - "Sığorta fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Banklar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə uyğun olaraq, ləğv edilən sığortaçının və müflis bankın dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına ödəməli olduğu vergi və digər məcburi ödənişlərin heç bir müddət məhdudiyyəti tətbiq edilmədən tam məbləğdə ödənilməsi nəzərdə tutulur.

Gündəliyin daha bir məsələsi - "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi mal, xammal və avadanlıqların idxalını dəstəkləmək məqsədilə müvafiq qurumlar tərəfindən bir sıra malların idxalının, eləcə də müəyyən məqsədlər, o cümlədən humanitar yardımın göstərilməsi, müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı üçün malların idxalının gömrük rüsumlarından azad edilməsi məqsədilə hazırlanıb.

Bildirilib ki, sonuncu məsələdə - "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsində uyğunlaşdırma xarakterli düzəlişlər öz əksini tapıb.

Gündəliyin bu 6 məsələsi də birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycanın inkişaf modeli

## Böyük qələbələr və yeni çağırışlarla zəngin türk əsrinə böyük töhfə

Tarixin də, zamanın da tələbi olan türk dövlətlərinin birliyi sayəsində bu gün qələbələrlə, uğurlarla, yeni çağırışlarla bol bir əsrdə - türk əsrində yaşayırıq. Türkdilli ölkələr arasında getdikcə artan və yeni inkişaf mərhələsinə qədəm qoyan hərtərəfli əlaqələr Türk Dövlətləri Təşkilatının (TDT) da dünyada söz sahibi olan güc mərkəzinə çevrilməsinə rəvac verib.




Heç şübhəsiz, türk dünyasının sıx birləşməsində Azərbaycanın xüsusi rolu var və o da təsadüfi deyil ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi respublikamızın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir.

Noyabrın 3-də təşkilatın Astanada keçirilən "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü zamanı Prezident İlham Əliyev də bildirdi ki, etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir: "2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir".

### Yeni türk tarixinin ən parlaq zəfəri

2020-ci ildə Azərbaycanın torpaqlarını işğaldan azad etməsi və 8 Noyabr Şuşa zəfərini çalması, eləcə də 2023-cü ildə suverenliyini bərpa edərək Xankəndidə bayrağını dalğalandırması, ümumilikdə türkdilli xalqlar adına qazanılan parlaq zəfərlər olmaqla yanaşı, həm də türk dünyasının tarixən var olan etnosiyasi coğrafiyasını bərpa edib. Yeni türk əsrinin bu ən şanlı zəfərləri türk birliyinin daha da güclənməsi üçün misilsiz təkan olub.

Böyük türk dünyasına bəxş etdiyi bu möhtəşəm qələbələrə görə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2022-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşü zamanı Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə layiq görülüb.

Bu il noyabrın 3-də Astanada keçirilən 10-cu yubiley Zirvə görüşü zamanı türkdilli ölkələrin prezidentləri çıxışlarında bir daha tarixi zəfərlərə görə İlham Əliyevi və Azərbaycan xalqını təbrik etdilər.

Çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün türk dövlətlərində qürur doğurduğunu vurğulayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan onu da vurğuladı ki, can Azərbaycan Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoyub: "Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyuruq. Bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdıq. Açılan fürsət pəncərəsinin dəyərləndirilməsi ən böyük arzumuzdur".

Eləcə də Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Prezidenti Sadır Japarov, Macarıstanın Baş naziri Viktor Orban Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın əldə etdiyi qələbələrdən, uğurlardan fəxrlə söz açdılar.

Türkdilli ölkələr işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin bərpa olunması istiqamətində də Azərbaycana dəstəklərini göstərirlər.

Füzuli rayonunda dost Özbəkistan tərəfindən məktəb inşası həyata keçirilib. Avqustun 23-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər.

Füzulidə Qazaxıstan tərəfindən tikilən yaradıcılıq mərkəzinin isə inşası davam edir.

Türkdilli dövlətlərin qardaşlıq dəstəyinin daha bir nümunəsi isə Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilməsidir.

### "Şərq-Qərb" nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə dəyərli töhfə

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət nəticəsində türkdilli ölkələr arasında siyasi, diplomatik, mədəni əlaqələrlə yanaşı, iqtisadiyyat, ticarət sahələrində də böyük nailiyyətlər əldə edilib.

Prezident İlham Əliyevin Mərkəzi Asiya ölkələrinə ardıcıl səfərləri, həmçinin bu regiondakı ölkələrin dövlət başçılarının Azərbaycana səfərləri də türk dövlətləri ilə yüksək əlaqələrin bariz göstəricisidir.

"Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər", - deyə Astanada keçirilən görüşdə dövlət başçısı İlham Əliyev məlumat verdi ki, Azərbaycan türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur və bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Ölkə rəhbəri onu da bildirdi ki, birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradılmışdır. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır: "Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib.

Azərbaycan "Şərq-Qərb" nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir".

### Təhlükəsizlik, müdafiə sahələrində əməkdaşlıq daha da artmalıdır

Hazırda dünyada gedən geosiyasi proseslər, baş verən müharibələr fonunda türkdilli ölkələrin güclərinin birləşdirilməsinin vacibliyi özünü daha qabarıq göstərir.

Astanada keçirilən 10-cu yubiley Zirvə görüşü zamanı Prezident İlham Əliyev bildirdi ki, əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda ilk növbədə ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir: "Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır".

Türk birliyinin gücünün böyük əhəmiyyətə malik olduğunu 44 günlük Vətən müharibəsi zamanı əyani şəkildə görmüşük. Qarşıdakı hədəf və çağırışımız da elə bu həmrəyliyimizi daha da gücləndirmək, bütün çətinliklərin qarşısına türkün sarsılmaz birliyi ilə çıxmaqdır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Dövlət büdcəsi yeni çağırışlara uyğun hazılanıb



"2024-cü ilin dövlət və icmal büdcələrinin layihəsi postmünaqişə dövrünün çağırışlarına uyğun tərtib edilib. Belə ki, həmin çağırışların əsas tələbi olan işğaldan azad edilmiş ərazilərdə üç ildir aparılan fasiləsiz bərpa-yenidənqurma işlərinin daha da sürətləndirilməsi, Ermənistanla dövlət sərhədində yeni infrastrukturların yaradılması, Zəngəzur dəhlizinin açılması üçün yol infrastrukturlarının başa çatdırılması, eyni zamanda ordunun müdafiə qabiliyyətinin gücləndirilməsi və yeni nümunəvi ordu birləşmələrinin yaradılması büdcə siyasətinin əsas prioritetləri kimi müəyyən olunub".

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov deyib. Deputat bildirib ki, gələn ilin dövlət büdcəsinin gəlirlərində 3 fiskal mənbə - vergi, gömrük və neft transfertləri başlıca yığımları təşkil edəcək. Büdcə gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin dürüstləşdirilmiş göstəricisi ilə müqayisədə 282,5 milyon manat və yaxud 1,2 faiz çoxdur. Növbəti ilin büdcə layihəsi ənənəvi olaraq İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış makroiqtisadi inkişaf ssenarilərinə və proqnozlara əsaslandığından bu ssenariyə uyğun olaraq büdcə üçün mühüm göstəricidən biri olan neftin bir barelinin orta illik ixrac qiyməti 60 dollar fərz edilməklə götürülüb. Bu isə o deməkdir ki, neft gəlirlərində artım nəzərə alınmayacaq. Bu səbəbdən də neftin büdcədəki payı azalmış olacaq. Belə ki, gəlirlərin 17 milyard 164 milyon manatı neft, 17 milyard 009 milyon manatı qeyri-neft-qaz sektorunun payına düşür.

A.Hüseynov qeyd edib ki, dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat həcmində proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 139 milyon manat çoxdur: "Büdcədə əsas xərclər cari xərclərdir ki, məbləği 22 milyard 622 milyon manat olmaqla ümumi xərclərin 62,2 faizini təşkil edəcək. Bu isə o deməkdir ki, gələn il elm, təhsil, sosial müdafiə və təminat, səhiyyə, kommunal və digər sahələrə ayrılan vəsaitlərin həcmində artımlar olacaq. Büdcədə iki prioritet istiqamət - Qarabağ və Şərqi-Zəngəzurda quruculuğun davam etdirilməsi və ordunun müdafiə potensialının daha da möhkəmləndirilməsi əsas xərclər sırasındadır. Belə ki, azad edilmiş ərazilərin bərpa və yenidən quruculuq işlərinə 4 milyard manat, müdafiə və təhlükəsizlik üçün 6,4 milyard manat ayrılması nəzərdə tutulur".

A.Hüseynov vurğulayıb ki, gələn il sosial müdafiə və sosial təminat xərcləri 4 milyard 542 milyon manat olacaq. Bu da 2023-cü illə müqayisədə 5,2 faiz çoxdur. Eləcə də Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi 6 milyard 919,9 milyon manat proqnozlaşdırılıb ki, bu da 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 10,4 faiz və ya 690 milyon manat çoxdur. Beləliklə, sosial təminatla bağlı xərclərin məbləği təxminən 700 milyon manat artırılacaq ki, bu da bir çox sosial sahədə əlavə artımların maliyyə təminatı üçün əsas mənbə olacaq.

Deputat gələn il təhsilə ayrılan xərclərin 102 tədbiri əhatə edən 10 proqramın həyata keçirilməsi üzrə 4 milyard 549 milyon manat təşkil edəcəyini qeyd edərək bildirib ki, bu da cari ilə nisbətən 105 milyon manat çoxdur. Kənd təsərrüfatına isə 40 tədbiri əhatə edən 7 proqram üçün 1 milyard 109,9 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da cari ilə nisbətən 100 milyon manat azdır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Sosialyönümlülük prioritetdir

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin komitələrində müzakirə edilib. Növbəti ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinin, eləcə də işğaldan azad edilmiş ərazilərimizin yenidənqurma işlərinə ayrılan vəsaitin artırılması büdcənin prioritet hədəflər üçün etibarlı maliyyə təminatı yaradacağından xəbər verir.



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Rüfət Quliyev bildirib ki, 2023-cü ilin 9 ayında makroiqtisadi göstəricilərdə artımın müşahidə olunması növbəti ilin dövlət büdcəsinə müsbət təsir edir.

"Layihəyə əsasən, 2024-cü ildə ümumi daxili məhsulda artım 2,4 faiz proqnozlaşdırılır. Yəqin ki, gələn il də, bu il olduğu kimi, makroiqtisadi göstəricilərdə artım müşahidə ediləcək. Gələn ilin proqnozlarında inflyasiya səviyyəsinin 5,3 faiz proqnozlaşdırılması da müsbət haldır. Bu, Azərbaycan iqtisadiyyatının dinamik inkişafından xəbər verir", - deyə deputat söyləyib.

Rüfət Quliyev qeyd edib ki, büdcədə sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılmasını da müşahidə edə bilərik. Ümumiyyətlə, gələn ilin büdcəsində sosialyönümlü işlərə ayrılan vəsaitin həcmində artımlar olacaq. Büdcə xərclərinin 45 faizinin sosialyönümlü olması nəzərdə tutulub. Belə ki, təkcə sosial təminat və sosial müdafiə xərclərinin 4.5 milyard manatdan çox olması planlaşdırılıb. 2024-cü ilin büdcəsinin sosialyönümlü olması vətəndaşlarımızın rifahının daha da yaxşılaşdırılmasına hesablanıb. Yeni büdcə layihəsində sosial müdafiə və sosial təminat xərcləri cari illə müqayisədə 5,2 faiz artırılıb.

Deputatın sözlərinə görə, büdcə layihəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, eləcə də müdafiə və təhlükəsizliyimizin daha da gücləndirilməsi prioritet təşkil edir. Ona görə də büdcədə müdafiə və təhlükəsizliyimizin gücləndirilməsi ilə bağlı 6.5 milyard manata yaxın, Qarabağ və Şərqi Zəngəzurun bərpasına isə 4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Onu da qeyd edək ki, müdafiə və milli təhlükəsizlik xərcləri 2023-cü ildəkindən 5,5 faiz daha çox nəzərdə tutulub. Bu o deməkdir ki, büdcə xərclərinin təxminən üçdəbir hissəsi məhz bu iki istiqamət üzrə ayrılacaq.

Rüfət Quliyev deyib ki, 2024-cü ilin dövlət büdcəsində fərqli istiqamətlər nəzərə alınıb. "Misal üçün, ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsullarının idxal-ixrac məsələsi, su ehtiyatlarından səmərəli istifadə və digər sahələr üzərində ciddi hesablama aparılıb. Bütün bunları nəzərə aldıqda aydın olur ki, növbəti il də fiziki gəlirlərimizdə dayanıqlılığın qorunub saxlanılması, sosial təminatımızın gücləndirilməsi və müdafiə işinin daha da təkmilləşdirilməsi baxımından uğurlu olacaq. Eyni zamanda ayrılan vəsaitin artırılması nəticəsində Qarabağ və Şərqi Zəngəzurda işlərin intensivləşməsi ilə soydaşlarımızın doğma el-obalarına qayıdışı sürətlənəcək", - deyə deputat bildirib.

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan türk dünyasının birləşdirici mərkəzidir

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının (TDT) 10-cu Zirvə toplantısı keçirilib. Türk dünyası tarixinin əlamətdar hadisələrindən hesab edilən bu toplantıda bir sıra məsələlər ətrafında müzakirələr aparılıb, gələcək prioritetlər müəyyənləşdirilib. Bu sammit türk dövlətlərinin yeni mərhələyə qədəm qoyduqlarını və beynəlxalq siyasətdə ortaq mövqe sərgilədiklərini sübut edir.



Mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Musa Qasımlı bu təşkilatın yaradılma tarixindən söz açıb. Qeyd edib ki, ideyası Prezident İlham Əliyevə məxsus olan Türk Dövlətləri Təşkilatının tarixi Naxçıvan toplantısından başlayır.

Astanada keçirilən yubiley Zirvə görüşünün böyük tarixi əhəmiyyətinə və bu toplantının "Türk Əsri" adı altında keçirilməsinə diqqət çəkən Musa Qasımlı qeyd edib ki, dövlət başçılarının əməkdaşlıq məsələlərini müzakirə etmələri, liderlərin çıxışları mövcud vəziyyəti və perspektivləri əhatə edir. Zirvə toplantısı nəticəsində bir daha aydın oldu ki, qədimdən türk xalqlarının yurdu olan və dünyanın ürəyi hesab edilən Avrasiyaya bu gün də məhz türk xalqları hakimdirlər. Həmçinin bu təşkilata üzv ölkələrin əməkdaşlığı üçüncü dövlətə və dövlətlər qrupuna qarşı yönəlməyib.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin toplantıdakı nitqi Avrasiya məkanında, bütövlükdə dünyada dövlətimizin tutduğu önəmli yeri, oynadığı rolu göstərdi. Azərbaycanın birləşdirici bir körpü olduğu yenə öz təsdiqini tapdı. "Dövlət başçısı çıxışı zamanı Azərbaycanın tranzit imkanlarını bir daha önə çəkdi. Eyni zamanda 30 ilə yaxın işğal dövründə Ermənistanın vəhşi siyasətinin mahiyyətini, bəzi dövlətlərin və beynəlxalq təşkilatların ikili standartlara dayanan siyasətini ifşa etdi. Torpaqlarımızın işğaldan azad edilməsindən keçən üç ildə Azərbaycan dövlətinin böyük işlər gördüyünü bildirdi. Ən gözəl xəbərlərdən biri isə 2026-cı ilə qədər 140 min nəfər soydaşımızın işğaldan azad edilmiş ərazilərimizə dönəcəyinin, dədə-baba torpaqlarında məskunlaşacaqlarının müjdəsi oldu", - deyə deputat bildirib.

TDT-nin 10-cu Zirvə toplantısının əvvəlki toplantılardan tamam fərqli mühitdə keçirildiyini vurğulayan Musa Qasımlı deyib: "Azərbaycan 2023-cü il aprelin 23-də 1991-ci ildən bəri ilk dəfə olaraq dövlət sərhədləri üzərində nəzarətini bərpa etdi. Bu, müstəqillik tariximizdə cənab Prezidentimizin yaratdığı bir ilk idi. Eyni zamanda bu il oktyabrın 15-də cənab Prezident İlham Əliyevin Xankəndidə bayraq qaldırması və millətimizə müraciət etməsi tarixi əhəmiyyətli hadisə idi. Çünki 1988-ci ildən etibarən ilk dəfə idi ki, suverenliyimiz bütün ərazilərimizdə bərqərar edilirdi. Bu da Prezident İlham Əliyevin müəllifliyi ilə tariximizdəki ən böyük ilklərdən biridir".

Musa Qasımlı hesab edir ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, sərhədlərimiz üzərində nəzarətin qurulması və suverenliyimizin tam bərqərar olması TDT-nin və türk xalqlarının tarixində yeni mərhələ açır. Ona görə də Astanada keçirilən toplantı xüsusilə perspektivlər baxımından əhəmiyyətli hadisədir.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan bölgəyə yeni nəfəs gətirib

"Azərbaycan 44 günlük Vətən müharibəsində qələbəsi və bu ilin sentyabrında birgünlük lokal antiterror tədbirləri ilə öz suverenliyini, Konstitusiya hüququnu ölkə ərazisində tam bərpa etdi. Bu, dost ölkələri, xalqları sevindirsə də, bəzi dövlətlərin və qüvvələrin yuxusunu ərşə çəkib. Onların başında isə Fransa durur".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İsgəndərov deyib. O bildirib ki, özünü Avropada "demokratiyanın beşiyi", beşinci respublika sayan Fransa insan hüquqlarından, fikir plüralizmindən və digər fundamental insan haqlarından danışsa da, əməllərində bunun tam əksi görünür. Afrikada və digər ərazilərdə neokolonialist siyasət yürütmək, soyqırımları törətmək, digər kiçik xalqların hüquqlarını pozmaq, onların maddi nemətlərini sümürmək, islamofob, türkofob siyasət həyata keçirmək, dini və irqi dözümlülük göstərməmək bugünkü Fransa reallıqlarıdır.

V.İsgəndərov qeyd edib ki, Fransa artıq Afrikadan mərhələli şəkildə çıxmağa başlayıb: "Bu ölkə Avropada öz nüfuzunu Makron siyasətinə görə hər gün itirməkdədir. İndi də Fransa özünə 1000 kilometrlərlə uzaqda olan Cənubi Qafqaza hər vəchlə soxulmağa çalışır. Təbii ki, qarşısında güclü, müstəqil siyasət yürüdən Azərbaycanı gördükcə militarist siyasətini bir az da tündləşdirməyə başlayıb. Qeyd etmək lazımdır ki, Ermənistanın ağa axtarmaq siyasəti qədimdən belədir və bu yarımdövlət həmişə digər böyük ölkələrə sığınaraq "siyasət" həyata keçirib, sonda da həmin ağasına xəyanət edib. Bu gün Rusiya ilə siyasətdə Ermənistanın bu hərəkətlərini aydın görürük".

Deputat vurğulayıb ki, Fransa müharibənin artıq bitdiyini, qarşıdurmaya son qoyulduğunu anlamalıdır. Azərbaycanın uğurlu siyasəti ilə bölgəyə yeni nəfəs, bərpa-quruculuq işləri, stabillik gəlib və bunun qarşısını heç bir qüvvə ala bilməz. Azərbaycan-Ermənistan arasında sülh gündəliyinin təqdim olunması mərhələsidir. İki ölkə arasında dövlət başçıları, xarici işlər nazirləri, baş nazir müavinləri səviyyəsində komissiyalarda iş gedir, danışıqlar aparılır. Lakin Fransa və digər qüvvələrin buna soxulmaq cəhdləri sülh sazişinin imzalanmasına əngəl yaradır.

Vüqar İsgəndərov düşünür ki, Fransanın Ermənistanı silahlandırmaqla bölgədə gərginliyi saxlamaq cəhdləri iflasa uğrayacaq. "Çünki qarşısında güclü Azərbaycan, qardaş Türkiyə var. Bu ölkələrin milli maraqları var və regionda yalnız bölgə ölkələrinin və dövlətlərinin ortaq maraqları işləyə bilər. Bunun üçün də müvafiq işlər görülməkdədir. Fransa və digər belə qüvvələr bu bölgəyə soxulmağa cəhd etməklə yalnız uğursuzluğa düçar olacaqlar", - deyə V.İsgəndərov əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakı çinli qonaqları heyran edib

Çin Xalq Respublikasının paytaxtı Pekin şəhər Xalq Siyasi Məşvərət Şurası sədrinin müavini Çjan Çiyaminin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana rəsmi səfərə gəlib.



Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Pekin şəhərinin nümayəndə heyəti ilə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun görüşü keçirilib.

Görüşdə çıxış edən Eldar Əzizov qonaqlara Bakının tarixi, şəhərdə həyata keçirilən layihələr barədə məlumat verib. Bildirilib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində paytaxtın infrastrukturu keyfiyyət baxımından yeni səviyyəyə yüksəlib, şəhərdə aparılan genişmiqyaslı bərpa-quruculuq və abadlıq işləri onu daha da gözəlləşdirib. E.Əzizov xüsusi vurğulayıb ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva paytaxta daim qayğı göstərir və bunun sayəsində şəhərin tarixi irsi qorunmaqla yanaşı, müasir memarlığı da inkişaf edir.

Pekin şəhər Xalq Siyasi Məşvərət Şurası sədrinin müavini Çjan Çiyamin bildirib ki, Bakı ilə Pekin arasında münasibətlər günbəgün genişlənir, Azərbaycanla əlaqələr onun ölkəsi üçün xüsusi əhəmiyyət kəsb edir.

Qonaq Bakıda onlara göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Qeyd edilib ki, bu gün Prezident İlham Əliyevin yürütdüyü siyasət sayəsində Azərbaycan özünəməxsusluğu ilə seçilir. Bu səfərin Bakı və Pekin şəhərləri arasında əlaqələrin möhkəmlənməsində xüsusi rol oynayacağına əmin olduğunu bildirən Çjan Çiyamin vurğulayıb ki, Bakı öz təmizliyi, baxımlı şəraiti və yaşıllıqları ilə xüsusilə diqqəti cəlb edir.

Görüşdə iki paytaxt şəhər arasında gələcək əməkdaşlıq planları müzakirə olunub. Daha sonra çinli qonaqlar Bakının görməli yerləri ilə tanış olublar.

# Baş prokuror Türkiyənin Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti ilə görüşüb

Baş prokuror Kamran Əliyevin dəvəti ilə Türkiyənin Hakimlər və Prokurorlar Şurasının geniş tərkibli nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.



Qonaqlar Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. Şəhidlər xiyabanını ziyarət edən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub. Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi ziyarət edilib.

Daha sonra Baş Prokurorluqda görüş keçirilib. Baş prokuror Kamran Əliyev qonaqları salamlayaraq dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın sarsılmaz səyləri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdirildiyini qeyd edib.

Baş prokuror Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə nümayəndə heyətini təbrik edərək, 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərmiş olduqları siyasi və mənəvi dəstəyə görə Türkiyə rəhbərliyi və xalqına minnətdarlığını bildirib, bu ilin sentyabr ayında keçirilmiş lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suveren ərazi bütövlüyünün tam şəkildə bərpa edildiyini vurğulayıb. Kamran Əliyev ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri, Hakimlər və Prokurorlar Şurasının 1-ci Dairə üzvü xanım Aysel Demirel təmsil etdiyi qurumun Azərbaycanın prokurorluq orqanları ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirərək, 8 Noyabr - Zəfər Günü münasibətilə təbriklərini ifadə edib, bu əlamətdar tarixdə Azərbaycana gəldiklərindən məmnunluğunu bildirib.

Görüşdə ikitərəfli və çoxtərəfli formatda birgə fəaliyyətin perspektivləri, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində hüquqi əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi ilə də tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, ulu öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar, həmçinin qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar qonaqlarda zəngin təəssürat oyadıb.

Nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

# Xarici səyyahlar Füzulidə minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər





Xudafərin körpüsü ilə tanışlıqdan sonra Füzuli rayonuna səfər edən xarici səyyahlar Horadiz kəndi ərazisində minatəmizləmə prosesi barədə məlumatlandırılıblar.

AZƏRTAC xəbər verir ki, səyahətçilərə Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, minaların və digər sursatların təmizlənməsi işləri barədə məlumat verilib. Bildirilib ki, Füzuli rayonu mina və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ərazilərdən biri hesab edilir.

Xarici səyyahlar sonra ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər. Bununla da səyyahların Qarabağ və Şərqi Zəngəzura növbəti səfəri başa çatıb.

Qeyd edək ki, dünyaşöhrətli 4 əsas səyahətçilər şəbəkəsindən biri olan NomadMania klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50 nəfərə yaxın geniş heyətinin Qarabağ və Şərqi Zəngəzura səfəri təşkil olunub. Qrupa NomadMania klubunun rəhbəri, dünyanın səyyah elitasının əsas simalarından biri olan Harry Mitsidis başçılıq edib.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels", İsveçin "Club 100" klublarının geniş tərkibdə heyətləri ötən iki ildə 8 dəfə Qarabağ və Şərqi Zəngəzura səfər edib. Bu, sayca 9-cu analoji səfərdir. Onlardan 1-i 2021-ci ildə, 4-ü 2022-ci ildə, 4-ü isə 2023-cü ildə reallaşıb.

# BMU-da Zəfər Günü təntənəli şəkildə qeyd olunub

Bakı Mühəndislik Universitetində (BMU) Yeni Azərbaycan Partiyasının Xırdalan şəhər 40 saylı ərazi təşkilatı ilə birgə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş bayram tədbiri keçirilib.









Universitetin şəhid ailəsinin üzvü olan, həmçinin Vətən müharibəsində iştirak etmiş qazi tələbə və əməkdaşlarının da iştirak etdiyi tədbirdə şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən və Dövlət Himninin səsləndirilməsindən sonra "Zəfər tarixi" adlı videoçarx nümayiş olunub.

Zəfər Günü münasibətilə təbriklərini çatdıran BMU-nun rektoru Yaqub Piriyev tarixi qələbəni, şərəfli günləri bizə qazandıran şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edib, qazilərimizə cansağlığı arzulayıb və şəhidlərin bizim qəlbimizdə əbədi yaşayacağını deyib.

Rektor artıq üç ildir Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində şanlı qələbə şərəfinə təsis edilmiş Zəfər Gününü böyük qürurla qeyd etdiyini bildirib. Bu möhtəşəm tarixi Zəfər nəticəsində 30 illik işğala son qoyulmaqla yanaşı, iki əsrə yaxın dövrdə xalqımıza çoxsaylı fəlakətlər gətirən erməni şovinizminə sarsıdıcı zərbə endirildiyini önə çəkən ali təhsil ocağının rəhbəri Zəfərimizin növbəti ildönümünün Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd etdiyimiz bir vaxta, eyni zamanda cənab İlham Əliyevin prezidentlik fəaliyyətinin 20-ci ildönümünə təsadüf etməsinə diqqət çəkib. Yaqub Piriyev bu baxımdan şanlı Zəfərdən, dünyanın ən çətin və mürəkkəb münaqişələrindən olan Qarabağ probleminin birdəfəlik həllindən danışarkən, qələbəmizi şərtləndirən amillərə dönə-dönə qayıtmağın, nəzər yetirməyin vacibliyini vurğulayıb. Azərbaycan tarixinin ən parlaq səhifəsi olan Qələbəyə xilaskar şəxsiyyət Heydər Əliyevin siyasi kursunu davam etdirən, onun arzularını reallığa çevirən Prezident İlham Əliyevin gerçəkləşdirdiyi strateji inkişaf konsepsiyası nəticəsində nail olunduğunu söyləyən rektor Vətən müharibəsinə qədər Azərbaycanın keçdiyi və hərtərəfli dirçəlişlə müşahidə olunan şərəfli yoldan ətraflı danışıb.

Vətən müharibəsinin 44 günlük xronikasını diqqətə çatdıran rektor müharibənin gedişində ölkəmizin qüdrəti haqqında beynəlxalq birlikdə dəqiq təsəvvürün formalaşdığını, eyni zamanda bütün dünyanın öz xalqının maraqlarını bütün dəyərlərdən üstün tutan Müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin şahidi olduğunu söyləyib. "Vurğulamaq vacibdir ki, Prezident İlham Əliyevin postmüharibə dövründə yürütdüyü düşünülmüş siyasət, diplomatik gedişlər qələbəmizin dünya tərəfindən qəbul olunmasına, həmçinin suverenliyimizi bərpa etməyə imkan verdi. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyü təmin olunmuşdusa, bu il sentyabrın 20-də keçirilən 23 saatlıq, dünyada nadir olan antiterror əməliyyatı ilə torpaqlarımız üzərində dövlət suverenliyimiz tam bərqərar edildi. Bütün dünya azərbaycanlıları Müzəffər Ali Baş Komandanın Xankəndi, Əsgəran, Xocavənd, Xocalı və Ağdərədə üçrəngli bayrağımızı ucaltmasına böyük xoşbəxtlik, böyük fərəh, böyük qürurla şahidlik etdi", - deyən Yaqub Piriyev hazırda işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətlə davam etdiyini və bu proseslə paralel olaraq, məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıdışının hamımızın qəlbində sonsuz sevinc hissləri doğurdunu ifadə edib.

Tədbir iştirakçılarını bayram münasibətilə təbrik edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev möhtəşəm tarixi qələbənin bu il ölkəmizin suverenliyinin tam bərpa olunaraq bayram edilməsini xüsusi vurğulayıb. Şanlı qələbənin Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi və onun güclü, sarsılmaz siyası iradəsi, eyni zamanda ordumuzun qüdrəti hesabına qazanıldığına diqqət çəkən icra başçısı qələbəni bizə qazandıran qəhrəman oğullarımıza hər zaman borclu olduğumuzu söyləyib və onların daima yad edilməsinin vacibliyini vurğulayıb. Qazi və şəhid ailə üzvlərinin dövlətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunduğunu deyən Abdin Fərzəliyev Abşeron rayonunda yaşayan qazi və şəhid ailələri ilə bağlı görülən tədbirlərdən də bəhs edib.

Sonra çıxış edən şəhid Osman Manafovun həyat yoldaşı, BMU-nun II kurs tələbəsi Aysel Manafova Zəfər Gününü şəhid ailəsi olaraq, böyük qürurla qeyd etdiyini bildirib. Şəhidin şərəfli ömür yolundan danışan A.Manafova qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda canından keçən qəhrəman döyüşçü Prezident İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda", həmçinin "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Övladı Natiq Manafovun da atasının adına və Vətənə layiqli övlad kimi böyüdüləcəyini vurğulayan A.Manafova şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına, eyni zamanda ona verdiyi dəstəyə görə BMU rəhbərliyi, o cümlədən universitetin pedaqoji kollektivinə minnətdarlığını ifadə edib.

BMU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Ləman Şərifova isə çıxışında qələbəyə gedən yol, Zəfər Günü üçün borclu olduğumuz şəhid və qazilər, həmçinin bu qələbənin əmanət edildiyi gənclərin üzərinə düşən vəzifələr hadqa fikirlərini bildirib.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

# Dünyanın 26 ölkəsini təmsil edən səyyahlar Xudafərin körpüsü ilə tanış olublar

Dünyaşöhrətli 4 əsas səyahətçilər şəbəkəsindən biri olan NomadMania klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50 nəfərə yaxın geniş heyəti Qarabağ və Şərqi Zəngəzurda olub. Qrupa NomadMania klubunun rəhbəri, dünyanın səyyah elitasının əsas simalarında biri olan Harry Mitsidis başçılıq edib.



AZƏRTAC xəbər verir ki, dünya səyyahlarının işğaldan azad edilən Şuşa, Ağdam, Kəlbəcər və Laçına səfərindən sonra onların növbəti dayanacağı Cəbrayıl rayonu olub. Qonaqlar Xudafərin körpüsü ilə yaxından tanış olublar. Səyyahlara 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun böyük qəhrəmanlığı nəticəsində azad olunan Cəbrayıl rayonu, o cümlədən Xudafərin körpüsü barədə, həmçinin Ermənistan silahlı qüvvələrinin işğal dövründə törətdiyi vəhşiliklər və cinayət izləri haqqında məlumat verilib.

Bildirilib ki, ümumdünya əhəmiyyətli tarixi hadisələrlə bağlılığına, gözəl landşaftla üzvi birliyinə, yüksək memarlıq-mühəndis həlli və sair xüsusiyyətlərinə görə Xudafərin körpüləri Azərbaycan memarlığının universal dəyərli abidələridir. Tarixən İpək Yolunun üzərində yerləşən körpülərdən biri 15, digəri 11 aşırımlıdır. XII-XIII əsrlərin yadigarı olan körpülər orta əsrlərdə Azərbaycanda yüksək sənətkarlığın inkişafından xəbər verir.

Diqqətə çatdırılıb ki, digər ərazilər kimi, bu yerlər də dağıntılara məruz qalıb, işğal illərində evlər dağıdılıb, təbiət isə məhv edilib. Burada da bir çox tarixi dini abidələr ermənilər tərəfindən təhqir edilib, məscidlər tövlə kimi istifadə olunub. Həmçinin qəbirlər qazılaraq dağıdılıb. Vurğulanıb ki, məhz işğaldan azad edildikdən sonra Şərqi Zəngəzurda həyat canlanmağa başlayıb və ölkəmiz tərəfindən mühüm layihələr üzrə işlər aparılır.

Qeyd edək ki, dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, NomadMania və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın "Piki Reels", İsveçin "Club 100" klublarının geniş tərkibdə heyətləri ötən iki ildə 8 dəfə Qarabağ və Şərqi Zəngəzura səfər edib. Bu, sayca 9-cu analoji səfərdir. Onlardan 1-i 2021-ci ildə, 4-ü 2022-ci ildə, 4-ü isə 2023-cü ildə reallaşıb.

Dünyanın səyyah elitasının Qarabağ və Şərqi Zəngəzura bu ardıcıl səfərləri, hər dəfə heyətin daha da genişlənməsi onu göstərir ki, bölgədə qısa müddətdə Azərbaycan dövlətinin apardığı nəhəng və genişmiqyaslı quruculuq işləri dünyada heyrətlə qarşılanır. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması, Ermənistanın törətdiyi müharibə cinayətlərinin yerində nümayişi üçün də müstəsna əhəmiyyət daşıyır.

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# O, şəhidlik zirvəsinə yüksələcəyini bilirdi...

Torpaqlarımızın azadlığı uğrunda gedən 44 günlük Vətən müharibəsində düşmənin bağrını yaran, onları torpaqlarımızdan qovan qəhrəman Azərbaycan əsgərləridir. Məhz Azərbaycan döyüşçülərinin göstərdiyi şücaət sayəsində uzun illər itirilmiş torpaqlarımızı geri qaytara, doğma yurdlarımıza sahib çıxa bildik. Azərbaycan torpaqlarının bütövləşməsi uğrunda döyüş əməliyyatlarına qatılan hər bir Azərbaycan oğlu, hər bir Azərbaycan əsgəri öz canı, qanı bahasına mübarizəyə atıldı. Və təbii ki, bu mübarizədə birinci yerdə dayanan bizim qəhrəman şəhidlərimizdir. Onlar millətin, dövlətin qüruru naminə canlarından keçdilər, milli kimliyimizi özümüzə qaytardılar.



Bu Vətən oğullarını unutmamaq, onları ehtiramla yad etmək, bu qəhrəmanların keçdiyi həyat yolunu örnək olaraq, tarixin şərəf səhifəsi kimi tanıtmaq bizim hər birimizin onların ruhu qarşısında bitib-tükənməyən müqəddəs borcumuzdur!

II Qarabağ müharibəsi başladığı ilk gündən "Vətən dardadır" deyərək könüllü olaraq savaşa atılan, bugünkü qürurverici tariximizi öz qanları ilə yazan qəhrəmanlarımızdan biri də şəhid Səbuhi Rövşən oğlu Sadıqovdur.

Səbuhinin ailəsi 1993-cü ildə Füzuli rayonu erməni silahlı birləşmələri tərəfindən işğal edildikdən sonra məcburi köçkün kimi öncə Biləsuvar rayonuna pənah gətirmiş, sonra isə Bakı şəhərinə köçmüşdü. Səbuhi Biləsuvarda dünyaya gəlmişdi. Füzuli rayonunun Ələsgərli kəndindən olan Rövşən Əlihəsən oğlu Sadıqov sürücü işləyərək övladlarını - oğlu Səbuhini, qızı Aliyəni öz halal zəhməti ilə yetişdirmiş, gözəl tərbiyə vermiş, ən əsası isə onları torpaq, Vətən sevgisi ilə böyütmüşdü.

Səbuhinin uşaqlıqdan idmana olan həvəsi, əzm və iradəsi onun hələ gənc yaşında qara kəmər qazanması ilə nəticələndi. O, uşaq yaşlarından başlayaraq karate, kikboks ilə məşğul olmuş, 14 yaşına kimi yüngül klublararası turnirlərdə iştirak etmişdir. 14 yaşından sonra sərbəst güləşlə məşğul olmuş və Azərbaycan Güləş Federasiyasının milli yığmasının üzvü seçilmişdir. Respublika daxilində və beynəlxalq yarışlarda dəfələrlə müxtəlif dərəcələrlə təltif olunmuş, çempion adını qazanmışdır. MMA (qaydasız döyüş) döyüş növü üzrə peşəkarlıqla məşğul olmuşdur. Ultimax Döyüş Növləri Federasiyasının üzvü idi. "Comando Fight Klubu"nu yaradaraq çoxlu sayda özü kimi tələbələr yetişdirmişdi. Bir sıra yarışlarda Azərbaycan Respublikasını təmsil edərək qazandığı nailiyyətlərlə bayrağımızı yüksəltmişdir.

2014-2015-ci illərdə Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrinin sıralarında 1il yarım hərbi xidmət keçmişdir. 2015-2017-ci illərdə Ultimax Döyüş Növləri Federasiyasının təşkil etdiyi Bakı və 2017-ci ildə respublika çempionatlarında qalib olmuşdur. Gürcüstanda keçirilən dünya çempionatında peşəkar kəmər uğrunda mübarizə aparmış və qara kəmər qazanmışdır.

2011-ci ildə Bakı şəhəri N.Nərimanov rayonundakı 73 saylı tam orta məktəbin IX sinfini bitirdikdən sonra Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinə daxil olmuşdur. Kolleci bitirdikdən sonra, 2014-cü ildə həqiqi hərbi xidmətə çağırılmış və hərbi xidmətini Naxçıvan Muxtar Respublikasının Xüsusi Təyinatlı Qüvvələrində tank əleyhinə batareyanın 1-ci taqımının sürücüsü vəzifəsində xidmət edərək başa vurmuşdur.

28 sentyabr 2020-ci ildə Vətən müharibəsinə könüllü olaraq yollanmış, Xüsusi Təyinatlı Qüvvələrin (bundan sonra XTQ) tərkibində kəşfiyyatçı kimi fəaliyyət göstərərək Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı uğrunda döyüşmüşdür. 4 noyabr 2020-ci ildə Laçın istiqamətində gedən qanlı döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 5-də Əhmədbəyli kənd qəbiristanlığında dəfn edilmişdir.

Valideynləri ilə sagollaşarkən "Dua et, ana, mən arzuma çatım" sözlərini söyləyən Səbuhinin ən böyük amalı doğma Qarabağımızı mənfur düşməndən azad etmək və lazım gələrsə, bu yolda şəhidlik zirvəsinə yüksəlmək idi. Onun düşüncələrində, qəlbində heç vaxt görmədiyi torpaqların: ata ocağı Ələsgərli kəndi, anasından duyduğu barlı-bağatlı, sirin sulu kəhrizləri ilə məşhur olan ana yurdu Horadiz kəndinin timsalında bütün Qarabağ yanğısı, həsrəti vardı.

Xasiyyətcə nə qədər mehriban, qayğıkeş övlad olsa da, qarşısına qoyduğu amalı, məsləki uğrunda mübarizədə bir o qədər qətiyyətli, prinsipial idi Səbuhi.

Şəhid anası Yeganə Əliyevanın dediklərindən: "Kiçik yaşlarında çox ciddi uşaq idi, böyüdükcə daha gülərüz oldu. Səbuhi həqiqətən başqa cür oğul idi... Valideynlərinin zərrə qədər də əziyyət çəkməsini istəmirdi. Hərbi xidmətini Naxçıvanda keçirmişdi, o zaman yanına getməyimizə belə razı olmurdu.

Səbuhinin şəxsi idman klubu vardı, həm də şirkətlərin birində sürücü işləyirdi. Müharibə başlayan gün maşınından Azərbaycan bayrağını asdı və cəbhəyə getmək üçün könüllü müraciət etdi. Axşam işdən gəlib sevinə-sevinə dedi ki, məni də çağırdılar, gedirəm cəbhəyə. Torpağımızı özümüz qorumalıyıq!

2020-ci ilin yayında bütün fikri Lələtəpədə olan dostlarının yanında idi. Deyirdi ki, yayın istisində onlar orada əziyyət çəkirlər. Bibisi rayonda yaşayırdı, onlara gedib oradan həmin əsgərlərə yemək bişirtdirib, digər ehtiyaclarını - ərzaq, su, siqaret və s. aparıb postlarına çatdırmışdı. Ancaq avqust ayında Bakıya qayıtdı, cəmi bir ay evdə qaldı, sonra isə yenidən cəbhəyə yollandı. Hamımız dedik ki, getmə, bala, evin tək oğlusan, nişanlısan, bu gün-sabah toyun olacaq. Dedi ki, Vətən dardadır, getməliyəm!

Ermənilər Gəncəni vuranda zəng etmişdi, mənim kədərli olduğumu duyub soruşdu ki, ana, niyə kefsizsən, dedim Gəncəni vurublar, orada körpə uşaqlar, dinc əhali həlak olub. Dedi ki, ana, bilirəm, şərəfsizlər Xocavənddən vurublar, amma yerlərində oturtduq onları, bir daha vura bilməyəcəklər.

Cəbhədən zəng vuranda uşaq kimi sevinirdi və "Çox sevinirəm, ana, torpaqlarımızın azad olunmasında mənim də payım var. Xocalının qisası yerdə qalmadı, ana, indi rahat ola bilərəm" deyirdi".

Hansı ərazilərdə olduğunu anasından da gizlədərək kişi kimi döyüşdü:

"Savaşın ilk vaxtlarında telefonla danışanda "Sənin doğulduğun torpaqdayam, ana, sənin oxuduğun məktəbdəyəm" (erməni vandalları Horadiz kəndini bütünlüklə xaraba qoymuş, yalnız ikimərtəbəli, çoxsaylı otaqları olan məktəb binası hərbi qərargah kimi saxlanmışdı - G.N.) dedi mənə, kənd Horadizin adını çəkmədi, mən də başa düşdüm ki, ad çəkmək olmaz. Dedim ki, oğlum, məktəbin yanında böyük bir uşaq bağçası da vardı, dedi ki, "eh ana, heç nə qalmayıb, şərəfsizlər hər yeri xaraba qoyublar".

Beləcə torpaqlarımızın azad olunmasına öz övladlıq payını verərək şəhid oldu:

"Səbuhi bir çox yaşayış məntəqələrinin azad edilməsində yaxından iştirak edərək Füzulidən Laçınadək şərəfli bir yol keçib. Laçının Suarası kəndində yoldaşlarından ayrılaraq Şuşanı azad etmək üçün yollanıblar, lakin yolda azğın düşmənin atdığı minaatan mərmisindən sağ döş qəfəsindən ağır yaralanaraq şəhid olub... Xatirəmdə cəbhəyə yola saldığım anı, gülən siması qalsın deyə mən onun üzünü açıb baxa bilmədim... Əmisi uşaqları dedi ki, döş qəfəsinin sağ tərəfindən yaralanmış, əli ürəyinin başında, gülərüz siması ilə şəhid olmuşdu..."




Şəhidlik zirvəsinə yüksələcəyini əvvəlcədən bilirdi...

Səbuhinin sağ qalan cəbhə yoldaşlarının məlumatına əsaslanan şəhid atası Rövşən Sadıqovun dediklərindən: "Axırıncı dəfə 4 noyabr 2020-ci ildə qanlı döyüşlər getdiyi Laçının Suarası kəndində onunla bir yerdə döyüşdə olanlar var. Amma bütün yoldaşları həlak olduğu üçün son döyüşü haqqında heç bir ətraflı məlumat əldə edə bilmədik.

Səbuhi ilə birgə döyüş yolu keçən əsgər yoldaşı (hazırda Füzuli Rayon İcra Hakimiyyətində çalışır) dedi ki, "7 nəfər idik, bizdən yalnız Səbuhi XTQ-yə qoşularaq gedəsi oldu. Onun boynundan asılan zəncirə bərkidilmiş lövhəyə adını və soyadını mən yazdım. Bir azdan Səbuhi gəlib dedi ki, mən bu yazıya əlavə etdim. O zaman mən əhəmiyyət vermədim. Səbuhi şəhid olandan sonra bildim ki, boynundan asılan zəncirə bərkidilmiş lövhənin arxa tərəfinə öz əlləri ilə şəhid sözünü yazıbmış. Səbuhi şəhid olacağını əvvəlcədən duymuşdu..."

Müharibə bitdikdən sonra şəhid Səbuhi Rövşən oğlu Sadıqov 44 gün davam edən Vətən müharibəsində 37 gün ərzində göstərdiyi qəhrəmanlıq və şücaətinə görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və "3-cü dərəcəli vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Sonda onu demək istəyirəm ki, şəhidimiz haqqında bu yazını qələmə alarkən öncə çox ağır, çətin gəldi mənə. İnsanlığın fövqündə dayanan bu rəşadətli, qeyrətli Vətən oğlunu anlatmada qələmimin aciz qaldığını hiss etdim. Bir neçə sətirdən sonra sanki şəhidimizlə birgə onun şərəflə keçdiyi bütün torpaqları - Füzulini, Cəbrayılı, Xocavəndi, Qubadlını addım-addım, qarış-qarış gəzdim... 30 il həsrətində olduğum, görə bilmək ümidi ilə yaşadığım o torpaqlara məndən tez gedən şəhidim sanki özü mənim əlimdən tutub aparırdı... Sonda Laçında dayandıq və həsrətlə Şuşaya boylandıq.... Onun ən böyük arzusu Azərbaycan bayrağını Şuşada dalğalandırmaq idi. Cəmisi dördcə gün qalmışdı Səbuhinin bu müqəddəs arzusunun gerçək olmasına. Cəmi dördcə gün... Mənfur düşmənin minaatanının mərmisi ilə köksündən ağır yaralanaraq noyabrın 4-də şəhid oldu və ölümsüzlük zirvəsinə yüksəldi.

Səbuhinin timsalında I Qarabağ müharibəsinin 20 min nəfərə yaxın, II Qarabağ müharibəsinin 3 min nəfərə yaxın, 19-20 sentyabr Qarabağda antiterror tədbirlərinin 300 nəfərə yaxın şəhidi bu torpaq uğrunda canlarını fəda etdilər. Həqiqətən də, biz millət olaraq, dövlət olaraq bu oğullarımızla fəxr edirik, qürur duyuruq. Bu vətənpərvər övladlar gələcək nəsillər üçün örnək olduqlarını ortaya qoydular.

Bu gün Yeganə ana yeganə oğlunun "Dua et, ana, mən arzuma çatım" sözlərini xatırlayaraq təsəlli tapır. Vətən qeyrətli cəsur balasını cəbhəyə yola salarkən onun gözlərində gördüyü sevinci xatırlayaraq yaşaya bilir...

Bu gün Rövşən ata yeganə oğul övladının, qeyrətli, cəsur balasının Vətən torpağını yağı düşməndən azad etdiyi üçün onunla qürur duyur, oğlunun timsalında bütün şəhidlərimizlə fəxr edir...

Qarabağın azadlığı uğrunda gedən Vətən müharibəsində başlanan Azərbaycanın bütövləşməsi tarixi bu günlərdə, 19-20 sentyabrda ordumuzun Qarabağda apardığı antiterror tədbirləri nəticəsində başa çatdı.

Yaxın günlərdə daha qürurlu bir tarix yaşadıq: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 oktyabrda Qarabağ xanlığının qurucusu Pənahəli xan tərəfindən əsası qoyulmuş Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin hər birinin adı əsrlərboyu yaşayacaq, xatırlanacaq və ürəklərdə əbədi heykələ dönəcəkdir!

***Güntəkin NƏCƏFLİ,***
***tarix üzrə fəlsəfə doktoru, dosent, Dövlət mükafatı laureatı***

## ZƏFƏR gündəliyi
## 7 noyabr 2020-ci il

**Noyabrın 7-nə** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar var. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılır.

Azərbaycan Ordusu bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının 1-ci taboru bölmələrinin şəxsi heyəti arasında itkilər var. Düşmənin D-30 artilleriya diviziyonunun 3-cü batareyasının topları da sıradan çıxarılıb.

Cəbhənin bütün istiqamətlərində döyüş əməliyyatları davam edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini, Ağdam rayonunun Çullu və Çıraqlı kəndlərini artilleriya atəşinə tutur.

❖ ❖ ❖

Prezident İlham Əliyev rəsmi “X” hesabında müjdəli xəbər paylaşır:

“Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖

Ermənistan daha bir dezinformasiya yayır. Guya Qubadlı rayonu ərazisindən Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi bölmələrimiz tərəfindən atəşə tutulur. Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, bu, Ermənistan tərəfinin yaydığı təxribat xarakterli növbəti dezinformasiyadır.

Əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutur.

Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutur. Nəticədə bir nəfər kənd sakini həlak olur.



# Zəngilanın təsdiq edilən baş planında şəhərin 40,5 faizini yaşıllıqlar təşkil edir

Zəngilan şəhərinin baş planı aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilib.




Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Zəngilanın baş planının hazırlanması üçün komitə nüfuzlu beynəlxalq şəhərsalma təşkilatı - İsveçrənin "sa_partners" şirkətini və Bakı Dövlət Layihə İnstitutunu əməkdaşlığa cəlb edib.

Baş planın konsepsiyasına əsasən, Zəngilan logistika, turizm və ticarət, bərpaolunan enerji, müasir innovasiyalar mərkəzi kimi inkişaf etdiriləcək. Şəhərin beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizinin üzərində yerləşməsi onun strateji məntəqə rolunu gücləndirəcək, sürətli inkişafına töhfə verəcək. Şəhərin bilavasitə yaxınlığında ən müasir dünya standartlarına uyğun inşa edilərək artıq istismara verilmiş Zəngilan Beynəlxalq Hava Limanı, inşası davam edən magistral dəmir və avtomobil yolları onu əhəmiyyətli regional logistik mərkəzə çevirəcək.

Eyni zamanda şəhər gözəl iqlimi, mənzərəli landşaftı, yaşıl çayətrafı bulvarı və digər ictimai məkanları, habelə "ağıllı şəhər", "ağıllı mobillik" və "yaşıl enerji" yanaşmaları, zövqlü memarlığı, rahat şəhər mühiti və müasir sosial infrastrukturu sayəsində yüksək həyat keyfiyyəti ilə seçiləcək.

Zəngilan şəhərində yaşayış ərazilərinin və ictimai məkanların uğurlu plan həlli yüksək yaşıllaşdırma göstəricilərinə nail olmağa imkan verir. Belə ki, baş plana uyğun olaraq şəhər ərazisinin 135,2 ha (40,5 faiz) sahəsini yaşıllıqlar təşkil edir. Şəhərlərdə ümumi istifadədə olan yaşıllıq sahəsinin bir adama düşən norması qanunvericiliklə 8-10 m2 nəzərdə tutulduğu halda, Zəngilan şəhərində bu göstərici 44,7 m2 təşkil edəcək.

Şəhərin baş planı ilə ümumi ərazisi 333 ha, əhali sayı isə 16000 nəfər olacaq.

Şəhərdə yaradılacaq əsas təhsil, inzibati, səhiyyə və mədəniyyət obyektləri:

- 960 uşağın təhsil alacağı 4 məktəbəqədər təhsil müəssisəsi;
- 2880 şagird yerlik 3 ümumtəhsil müəssisəsi;
- mərkəzi rayon xəstəxanası və ambulator poliklinika;
- inzibati bina;
- mədəniyyət mərkəzi;
- İşğal və Zəfər muzeyləri kompleksi və s.

Şəhərdaxili küçə-yol şəbəkəsinin uzunluğu 29 km, velosiped yollarının uzunluğu isə 14,6 km kimi nəzərdə tutulmuşdur.

Şəhərin memarlıq simasını milli ənənələri özündə qoruyan müasir və minimalist həllər, eləcə də zəngin təbiəti, sağlam və yaşıl mühiti formalaşdıracaq. Binaların inşasında əsasən yerli materiallardan istifadə olunacaq. Fasadlarda təbii daş və boya, taxta elementlərinə üstünlük veriləcək.

Şəhərin baş planı əsasında ilk mühüm layihələr artıq reallaşdırılmışdır. Bunlar, təbii ki, Zəngilan Beynəlxalq Hava Limanı və 29 sentyabr 2023-cü il tarixdə dövlət başçısının da iştirak etdiyi II Milli Şəhərsalma Forumuna evsahibliyi etmiş Zəngilan Konqres Mərkəzidir.

Eyni zamanda hazırda şəhərdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulmuş bir sıra layihələr sürətlə həyata keçirilməkdədir:

- 630 ailənin yaşayacağı 4 yaşayış məhəlləsi;
- 960 yerlik tam orta məktəb;
- 160 yerlik uşaq bağçası;
- 91 çarpayılıq mərkəzi rayon xəstəxanası;
- inzibati bina;
- İşğal və Zəfər muzeyləri kompleksi.

# Laçında "Bayraq yürüşü" keçirilib





**Noyabrın 6-da Elm və Təhsil Nazirliyi və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Laçında "Bayraq yürüşü" keçirilib. 2014-cü ildən etibarən keçirilən "Bayraq yürüşü" bu il ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərimizdə təşkil olunub.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə Laçın şəhəri 2 nömrəli tam orta məktəbdə 9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar tədbir keçirilib. Elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Müdafiə Nazirliyinin nümayəndəsi, Elm və Təhsil Nazirliyinin əməkdaşları, Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin rəhbərliyi və əməkdaşları, Milli Qəhrəman Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova, şəhid Əlihüseyn Məmmədovun anası Arzu Məmmədova və digərləri tədbirdə iştirak ediblər.

Dövlət himni səsləndirilib, şəhidlərin ruhu birdəqiqəlik sükutla anılıb. Çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən söhbət açıb, azad olunan torpaqlarımızda sürətli tikinti-quruculuq işlərinin görüldüyünü vurğulayıblar.

Sonra muğam ifaçıları Ehtiram Hüseynov və Firuz Səxavətin ifaları dinlənilib.

Daha sonra yürüşə start verilib. Əsgərlər Dövlət bayrağını 3 kilometrdən artıq yol qət edərək seyrangah adlanan əraziyə gətiriblər. Yürüş zamanı hərbi orkestrin ifasında vətənpərvərlik mahnıları səsləndirilib. Yürüşdə, ümumilikdə, 200-dən çox insan iştirak edib. Yürüş laçınlılar tərəfindən maraqla qarşılanıb.

Yürüşün keçirilməsində məqsəd Vətən müharibəsində qazanılmış Şanlı Qələbəni və bayrağımızın daşıdığı milli-mənəvi dəyərləri təbliğ etmək, şəhid və qazilərimizin tarixi Zəfər yolunu uca tutmaqdır.

Qeyd edək ki, Elm və Təhsil Nazirliyi Müdafiə Nazirliyi ilə birgə 2014-cü ildən etibarən milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hisslərinin aşılanması məqsədilə 9 Noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş ənənəvi "Bayraq yürüşü" təşkil edir. Yürüşlər 2014-2016-cı illərdə Bakı şəhərində, 2017-ci ildə Tərtər rayonunda, 2018-ci ildə Füzuli rayonunun Horadiz şəhərində və 2019-cu ildə Ağdam rayonunun Quzanlı qəsəbəsində keçirilib.

# BMT-nin humanitar agentlikləri Yaxın Şərqdə atəşkəsə çağırdılar

**Bir ay ərzində Qəzza zolağında BMT-nin 88 əməkdaşı həlak olub. Bu barədə Birləşmiş Millətlət Təşkilatının 18 humanitar agentliyinin bəyanatında deyilir: "Bəsdir. Bu, dərhal dayandırılmalıdır".**



BMT-nin Uşaq Fondu (UNICEF), Ümumdünya Ərzaq Proqramı və Ümumdünya Səhiyyə Təşkilatı da daxil olmaqla, təşkilatın əsas qurumlarının rəhbərləri nadir hallarda keçirdikləri birgə aksiyada İsrail və HƏMAS arasındakı müharibədə təcili olaraq humanitar atəşkəsin elan edilməsinə çağırıblar. Bununla bağlı yayılan bəyanatda vurğulanır: "Artıq bir aya yaxındır ki, beynəlxalq ictimaiyyət İsraildə və Fələstin ərazilərində vəziyyətin inkişafını müşahidə edir, itkilərin sayının artması qarşısında şok və qəzəb yaşayır. Bizə təcili humanitar atəşkəs lazımdır".

Bəyanatın müəllifləri xatırladırlar ki, HƏMAS yaraqlılarının İsrailə hücumu nəticəsində 1400-ə yaxın insan həlak olub, minlərlə adam yaralanıb, 200-dən çox insan, o cümlədən uşaqlar girov götürülüb.

Müstəqil mənbələrdən bu məlumatları yoxlamaq mümkün deyil.

BMT bildirib: "Biz bir daha girovluqda olan bütün mülki şəxslərin dərhal və qeyd-şərtsiz azad edilməsinə çağırırıq. Mülki əhali və infrastruktur, o cümlədən xəstəxanalar, sığınacaqlar və məktəblər qorunmalıdır. Qəzzaya təhlükəsiz, tez və kifayət qədər miqdarda daha çox yardım - qida, su, dərman və təbii ki, yanacaq daşınmalı və ehtiyacı olanlara, xüsusən də qadınlara və uşaqlara çatdırılmalıdır".

Sənəddə həmçinin oktyabrın 7-dən Qəzza zolağında onlarca yardım işçisinin, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Fələstinli Qaçqınlara Yardım Agentliyinin (UNRWA) 88 əməkdaşının öldürüldüyü bildirilir.

Bəyanatda deyilir ki, bu, Birləşmiş Millətlər Təşkilatı əməkdaşlarının indiyədək bir münaqişədə qeydə alınmış ən yüksək ölüm sayıdır.

Yaxın Şərqdə münaqişənin kəskinləşməsi Avropa İttifaqı və ABŞ tərəfindən terror təşkilatı kimi tanınan radikal islamçı HƏMAS hərəkatının oktyabrın 7-də İsrailə qarşı genişmiqyaslı hücumundan sonra başlayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Avtomatlaşdırılmış Telefon Stansiyalarına servis xidmətinin satın alınması prosedurları çərçivəsində keçirilmiş kotirovka üzrə Satınalmalar komissiyasının 16.10.2023-cü il tarixli qərarına əsasən "ANTR" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

### E-təlim veb-platformasının hazırlanması və ona illik texniki dəstək xidmətinin satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 17 noyabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışına başlanılır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |


AZƏRBAYCAN
Türk əsrinin Azərbaycan zamanı
Azərbaycan Cənubi Qafqaz ölkələri arasında regional əməkdaşlığı dəstəkləyir
Milli hədəf
Əbədi dalğalan, ey şanlı Bayraq!
Türk dövlətləri beynəlxalq siyasətdə də ortaq mövqeyə sahibdirlər
Gələn ilin makroiqtisadi proqnozları davamlı inkişafdan xəbər verir
Azərbaycan Türk Dövlətləri Təşkilatında aparıcı mövqeyə malikdir

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Müştəri təcrübəsinin təkmilləşdirilməsi: AZAL əməkdaşlarının yeni obrazı





**Azərbaycanın milli aviadaşıyıcısı AZAL öz əməkdaşları üçün yeni forma təqdim edib. Yeni forma müştəri təcrübəsinin təkmilləşdirilməsi, insanlara qayğı, həmçinin brendin identik şəkildə qəbul edilməsini təmin edən uğurlu müştəri yolunun bir tərkib hissəsidir.**

"Komandanın yeni obrazı aviaşirkət müştərilərinin gözləntilərinə cavab verəcək bir sıra xidmətlərin təkmilləşdirilməsi istiqamətində mühüm dəyişikliklər, o cümlədən personalın peşəkarlıq səviyyəsinin artırılması, yenilənmiş menyu və digər bir çox detalları aydın şəkildə əks etdirir," deyə yeni təyin olunmuş Müştəri Təcrübəsinin İdarəolunması İdarəsinin Rəhbəri Varda Harhara bildirib. "Bütün bunlar AZAL-ın əsas prioritetlərindən biri olan rahat və qüsursuz səyahət təcrübəsinin ayrılmaz hissəsidir".

Dünyaşöhrətli azərbaycanlı dizayner Rüfət İsmayıl tərəfindən hazırlanmış yüksəkkeyfiyyətli eleqant kolleksiya zərif üslubu və müasir tendensiyaları ilə seçilir.

"Mən fəxr edirəm ki, "Azərbaycan Hava Yolları" aviaşirkəti öz əməkdaşları üçün yeni obrazın işlənib hazırlanmasında mənim baxışıma etimad göstərib. Klassik üsluba müasir dəb elementləri əlavə edərək uğurlu bir sembioz yaratmağa çalışdıq. Məqsədimiz, hər zaman aktual və trendlərlə yüklənməmiş kolleksiya yaratmaq idi", - deyə Rüfət İsmayıl bildirib.

Yeni forma uçuş heyəti, "VIP Lounge" və aviaşirkətin rəsmi kassalarının əməkdaşları üçün nəzərdə tutulub. Kolleksiyada brendin identik şəklində qəbul edilməsini təmin edən donlar, dəbli kostyumlar, ayaqqabılar və aksesuarlar vahid dizaynda yer alır. Kolleksiyaya aviasiya personalının iş xüsusiyyətləri və şəraitini nəzərə alan, rahatlıq və mükəmməl uyğunluğu təmin edən parçalardan hazırlanmış yay və qış geyimləri daxildir.

***"Azərbaycan Hava Yolları"***
***QSC-nin Mətbuat xidməti***

# Zəfər Günü münasibətilə güləş yarışı keçirilib

**Kürdəmirdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi və 8 Noyabr - Zəfər Günü münasibətilə yunan-Roma güləşi üzrə uşaqlar arasında yarış keçirilib. Yarışda 80-dən çox uşaq iştirak edib.**




Yarışın təşkilatçısı və baş hakimi Əməkdar bədən tərbiyəsi və idman xadimi Əlisahib Əliabbasov olub.

Qaliblərə Mərkəzi Aran Regional Gənclər və İdman İdarəsinin Kürdəmir rayonu üzrə sektoru tərəfindən diplomlar və mükafatlar da təqdim edilib.

Veteranlar arasında dünya çempionatlarının 7 qat mükafatçısı Əlisahib Əliabbasov deyib ki, Azərbaycan xalqı "Heydər Əliyev İli" çərçivəsində 8 Noyabr - Zəfər Gününü daha böyük coşqu ilə qarşılayır: "Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdırıblar. Bu Zəfərdə Azərbaycan idmançılarının da payı az olmadı. Həmişə beynəlxalq arenalarda bayrağımızı yüksəklərə qaldıran gənc idmançılarımız bu dəfə əzəli torpağımız olan Qarabağda bayrağımızın dalğalandırılmasında yaxından iştirak etdilər. İkinci Qarabağ müharibəsində ümumilikdə 988 idmançı iştirak edib ki, onlardan 320-si canlarından keçiblər. Beləliklə, sıralarında Azərbaycan idmançılarının da yer aldığı qüdrətli ordumuzun cəsur oğulları şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın 30 illik həsrətinə son qoydular".

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi komitənin aparat rəhbərinin müavini Zaur Əliyevə bacısı

**NƏZAKƏT ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı İnzibati Məhkəməsinin kollektivi məhkəmənin hakimi Mehriban Qarayevaya atası

**CƏFƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5312**
**Sifariş 2911**

**Qiyməti 40 qəpik**